
Spänningarna i Karabach beror på Armeniens kvarvarande militära styrkor

Replik. Angående de ogrundade påståendena om förekomna gasledningar är det uppenbart att Armenien utnyttjar de tekniska problem som uppstått till följd av ogynnsamma väderförhållanden i området som ett verktyg för politisk manipulation, skriver Zaur Ahmadov, Azerbajdzjans ambassadör till Sverige.

DEBATT

**İsveç nəşri: “Qarabağda gərginlik Ermənistanın hərbi qüvvələrinin regionda qalması ilə bağlıdır”**

6

# QARABAĞ:

## Qələbədən sonra Dirçəliş




# Səs

№ 067 (6508) 19 aprel 2022-ci il. Qiymətі 60 qəpik





2

# PUTİN-PAŞİNYAN

## görüşü: aprelin 19-dan sonra nə gözlənilir?

*Və ya Kreml iki seçimdən birini etməli və son qərarına gəlməlidir!*



7



4

# MEDİA

## silsilə seminarlara başlayıb

Medianın İnkişafı Agentliyi (MEDİA) ilə ADA Universitetinin imzaladığı Əməkdaşlıq Memorandumu çərçivəsində ”Media və kommunikasiya...

**Əmək pensiyaları daha çox vətəndaşı əhatə edəcək**



15



**Onlayn alış-verişə nəzarət gücləndirilir: Poçt bağlamalarının ciddi yoxlanmasının səbəbi nədir**

## Azərbaycan əsgəri 20 nəfəri son anda xilas etdi!



**Professor Aygün Attar: “Qarabağ Zəfəri hər birimizə nəsib olan ən ali mükafatdır”**



4



# Pike barədə 6 milyonluq ŞOK İDDİA!

16



**270 yaşlı Şuşamızın 190 yaşlı qızından söhbət açmaq istəyirəm...**

13

Dünyaya Xan qızı kimi gələn, lakin həyatın keşməkeşlərinin natəvanına çevrilən, ömrünün bir hissəsini...



**Hər yeri göbələk kimi basan “POZ QAZAN” LOTEREYALARI...**

14

Son aylarda ölkəmizin demək olar ki, hər yerində fəaliyyət göstərən ”Poz, qazan” ani lotereyasına olan maraq durmadan...

# QARABAĞ:

## Qələbədən sonra Dirçəliş



**Azərbaycan Prezidenti cənab İlham Əliyevin sədrliyi ilə aprelin 12-də 2022-ci ilin birinci rübündə həyata keçirilmiş tədbirlər və qarşıda duran vəzifələrlə bağlı müşavirə keçirilib. Müşavirədə təkcə 2022-ci ilin birinci rübünə dair yox, böyük bir dövrü əhatə edən görülmüş işlərlə bağlı fikirlər səsləndirildi. Ən əsas vəzifə isə işğaldan azad olunmuş ərazilərdə böyük yenidənqurma və bərpa işlərinin aparılması ilə bağlı dövlət başçımız fərmanlar imzalanmış, dövlət büdcəsindən müəyyən məbləğdə pul ayrılmışdır. Qeyd edək ki, 2021-ci il və 2022-ci illərdə işğaldan azad edilmiş torpaqlara 2.2 milyard manat vəsait ayrılmışdır. Və bu illər ərzində görülən işlər...**



### GÖRÜLƏN İŞLƏR 4 İL ƏVVƏL, 2018-Cİ İL APRELİN 11-DƏ KEÇİRİLƏN PREZİDENT SEÇKİLƏRİNDƏ QALİB LİDERİMİZİN SÖZÜNÜN İMZASI QƏDƏR DƏYƏRLİ OLMASININ TƏSDİQİDİR

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda aparılan Vətən müharibəsi Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında ordumuzun parlaq qələbəsi ilə başa çatdı. "Gün gələcək və bu gün hələ də işğal altında olan bütün torpaqlarda Azərbaycan bayrağı qaldırılacaq". Prezident İlham Əliyev bu sözləri 4 il əvvəl, 2018-ci il aprelin 11-də keçirilən prezident seçkilərində Ona göstərilən böyük etimada görə xalqımıza müraciətində demişdi. Dövlət başçısının hər bir çıxışında, görüşlərində, müraciətlərində, təbriklərində torpaqlarımızın işğaldan azad olunması məsələsi prioritet idi. Və dövlət başçısı hər zaman bəyan edirdi ki, danışıqlar nəticəsiz qalacağı təqdirdə güclü Azərbaycan Ordusu öz sözünü deyəcək. Artıq bu gün işğaldan azad edilmiş ərazilərimizdə inkişafın Azərbaycan nümunəsinin yeni təntənəsi yaşanır. Azad olunmuş ərazilərdə artıq böyük inkişafın təməlləri atılır.

Prezident İlham Əliyevin 2021-ci il dekabrın 10-da imzaladığı "İşğaldan azad edilmiş ərazilərdə iqtisadi inkişafın sürətləndirilməsi ilə bağlı bəzi tədbirlər haqqında" Sərəncamı bir daha dövlət başçısını bu sahəyə göstərilən qayğısının göstəricisidir. Sərəncamda qeyd olunur ki, Azərbaycan Respublikasının Ermənistanın işğalından azad edilən ərazilərinin bərpası, milli iqtisadiyyata sürətli inteqrasiyası, dayanıqlı inkişafının təmin olunması, orada ən müasir infrastrukturun qurulması, mədəni-tarixi abidələrin bərpası və layiqli yaşayış şəraitinin yaradılması istiqamətində genişmiqyaslı tədbirlər həyata keçirilir.Azərbaycan Prezidenti cənab İlham Əliyevin cari ilin birinci rübündə həyata keçirilmiş tədbirlər və qarşıda duran vəzifələrlə bağlı müşavirədə bildirib ki, İkinci Qarabağ müharibəsində şanlı qələbədən sonra yaranan reallıq göz önündədir. Qarşıya qoyulan bir nömrəli prioritet məsələ işğaldan azad olunmuş ərazilərdə bərpa və quruculuq işləri aparmaq, yeni infrastrukturların yaradılmasına, sərmayələrin cəlb edilməsinə nail olmaq, bir sözlə, Qarabağı yenidən cənnətməkana çevirməkdir. Azərbaycan Prezidenti cəmi bir il yarıma yaxın müddətdə ərzində Qarabağın dirçəlişi yolunda bir çox dövlətlərin 10 il ərzində görə bilmədiyi işləri reallaşdırıb, genişmiqyaslı layihələr icra olunur.



### "HEÇ KİMDƏN BİR MANAT DƏSTƏK ALMAMIŞIQ. AZAD EDİLMİŞ TORPAQLARI DA YÜZ FAİZ ÖZ GÜCÜMÜZƏ BƏRPA EDİRİK"

Dövlət başçısı bu sözləri müşavirədə çıxışı zamanı bildirib: "Bəli, xarici şirkətləri dəvət etmişik. Onlar orada podratçı kimi işləyir. Amma bu günə qədər heç kimdən bir manat almamışıq. Ancaq öz gücümüzə, öz istedadımıza güvənirik. Bunu mən xüsusilə qeyd etmək istəyirəm. Çünki adətən belə qanlı müharibələrdən, belə dağıntılardan sonra, - Qarabağ və Zəngəzurda dağıntıların dünyada bənzəri yoxdur, heç İkinci Dünya müharibəsində bu qədər dağıntılar olmamışdı, - donor konfransları, beynəlxalq təşkilatlar yığışır və bərpa planı icra edilir. İndi yenə də İkinci Dünya müharibəsinin tarixçəsinə nəzər salmaq kifayətdir. O vaxt Marşal planı tətbiq edilmişdir. Əgər Amerika Avropanı bərpa etmək üçün bu planı tətbiq etməsəydi, Avropa öz gücünə öz potensialını bəlkə də 50 ilə bərpa edə bilərdi. Digər münaqişələrlə bağlı beynəlxalq fondlar maliyyə yardımı göstərirlər. Bizə isə heç kim heç bir yardım göstərmir, nə işğal dövründə, nə də sonra. Hətta ölkələrin əksəriyyəti işğalı işğal kimi adlandırmaq istəmirdilər".

Azərbaycan Prezidenti bildirib ki, ikili standartlar, ədalətsizlik, bax, budur: "Biz bunu bu gün də görürük, Rusiya-Ukrayna müharibəsində görürük. Vaxtilə biz torpaqlarımızı işğaldan azad edəndə və məşhur "Bayraktar" dronlardan istifadə edəndə xarici ekspertlər və mətbuat bunu ölüm silahı kimi qələmə verirdi. İndi isə Rusiya-Ukrayna müharibəsində bunu mələk adlandırırlar. Fərq budur, ikili standartlar budur, bizə qarşı ədalətsizlik budur. Bu, reallıqdır. Biz isə öz gücümüzlə yeni reallıq yaratmışıq və yaradırıq. Ona görə bir daha demək istəyirəm ki, mən hələ də ümid edirəm, beynəlxalq təşkilatlar, böyük fondlar, xeyriyyəçiliklə məşğul olan beynəlxalq qeyri-hökumət təşkilatları bir nəzər yetirəcəklər".

### "AĞDAM QAFQAZIN XİROSİMASIDIR"

"Bunu mən yox, beynəlxalq mütəxəssislər deyir. Ağdam kimi bütün şəhərlər ermənilər tərəfindən yerlə-yeksan edilib",-deyən dövlət başçımız onu da vurğulayıb ki, biz heç kimdən bir manat almamışıq: "Ancaq bu ədalətsizliklə barışmaq da olmaz. Mən hesab edirəm ki, bizim qurumlarımız, hökumət, Prezident Administrasiyası, nazirliklər, hərə öz xətti ilə bu məsələ ilə bağlı gərək ciddi fəaliyyət göstərsin. Yardım göstərmək istəmirlərsə, desinlər ki, biz sizə yardım etməyəcəyik. Biz də işimizi biləh.

*Ardı Səh. 3*

# QARABAĞ:

## Qələbədən sonra Dirçəliş








Əvvəli Səh. 2

Yəni, müharibədən təxminən bir il yarım keçibdir. Bir fond belə bizə heç bir yardım göstərməyib. Minaların təmizlənməsi ilə bağlı - müharibədən sonra 200-dən çox insan ya həlak olub, ya da ki, ağır yaralanıb. Dünyada bu məsələ ilə məşğul olan o qədər fondlar var, QHT-lər var. Nə ilə məşğuldurlar? Gəlsinlər, kömək göstərsinlər. Bizim fiziki cəhətdən gücümüz çatmır. Biz nə lazımdırsa, almışıq. Maşın, mexanizm almışıq, texnika almışıq, hətta dronlar almışıq ki, o minalarla çirklənmiş yerləri təsbit edir. Ancaq bizdə mütəxəssis çatışmır, bizdə işçi qüvvə çatışmır. Ona görə, heç olmasa, bu sahədə bizə kömək göstərsinlər. Yenə də deyirəm, biz onsuz da öz gücümüzlə hər şeyi bərpa edəcəyik".

**"HƏQİQƏTƏN DƏ GERİYƏ BAXDIQDA GÖRÜRÜK Kİ, TARİXDƏ GÖRÜLMƏMİŞ İŞLƏRƏ İMZA ATMIŞIQ VƏ BU İŞLƏRİN GÖRÜLMƏSİNİ AZƏRBAYCAN ÖZ GÜCÜ İLƏ HƏYATA KEÇİRMİŞDİR"**

Bəli, döyüş meydanınıda qələbə qazanan Azərbaycan quruculuq meydanında böyük Qlobal böhranın dünya iqtisadiyyatına mənfi təsir etdiyi dönəmdə belə öz gücünə işğaldan azad edilmiş torpaqlarında yenidənqurma, tikinti-quruculuq işləri aparır, həmçinin digər bölgələrimizdə də dövlət proqramında əksini tapmış layihələri gerçəkləşdirir.Azərbaycan Prezidenti mütəmadi olaraq Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında həyata keçirilən layihələrə şəxsən nəzarət edir, müxtəlif yeni obyektlərin təməlini qoyur, bəzilərinin isə açılışını edib xeyir-duasını verir. Dövlət başçısı müşavirədə bir daha görülən işləri dəyərləndirdi, qarşıda dayanan vacib işlərlə bağlı ciddi tapşırıqlarını verdi. Qeyd edildi ki, Qarabağın yenidən qurulması proqramının icrası üçün dövlət büdcəsindən ayrılan 2,2 milyard manat vəsaitin 346 milyon manatı, yaxud 16 faizə yaxın hissəsi artıq yerinə yetirilib. Bu gün Ağdam və Füzuli şəhərlərinin baş planlarının təsdiqləndiyini bildirən dövlət başçısı söyləyib ki, bu yaxınlarda digər şəhərlərin də baş planlarının təsdiqlənməsi də öz həllini tapmalıdır. Şuşa, Cəbrayıl, Kəlbəcər, Zəngilan, Qubadlı şəhərlərinin, Hadrut və Suqovuşan qəsəbələrinin baş planları hazırlanmalıdır, bu il təsdiq edilməlidir və ondan sonra Qarabağ və Şərqi Zəngəzura aid olan investisiya proqramında əlavələr edilməlidir.

Prezident İlham Əliyev müşavirdə onu da söyləyib ki, 9 elektrik yarımstansiyasının, 4 SES-in açılışı olub, bu il daha 5 yarımstansiya inşa ediləcək. Hazırda Qarabağ və Şərqi Zəngəzurda elektrik yarımstansiyalarının inşası davam etdirilir. Xatırladaq ki, keçən il azad edilmiş torpaqlarda 9 elektrik yarımstansiyası inşa edilib. Dövlət başçısı vurğulayıb ki, düşmən tərəfindən dağıdılan stansiyaların bərpası istiqamətində bu il beş stansiya bərpa ediləcək və bu stansiyaların gücü 27 meqavata bərabər olacaq. Bu il "Xudafərin" və "Qız qalası" su elektrik stansiyalarının tikintisi ilə bağlı işlər sürətləndiriləcidir. Hazırda İran İslam Respublikası ilə danışıqlar aparılır. Həmçinin "bp" şirkəti ilə Cəbrayılda günəş-elektrik stansiyasının tikintisi üzrə danışıqlar gedir. Zəngilandan İran üzərindən Naxçıvana və oradan yenə də İranın enerji sisteminə və Türkiyəyə elektrik xətlərinin çəkilişi də gündəlikdə duran məsələlərdəndir.

**"AZAD EDİLMİŞ BÜTÜN TORPAQLARDA GÖRÜLMÜŞ İŞLƏR AZƏRBAYCANIN DÖVLƏT BÜDCƏSİ HESABINA APARILIR"**

Prezident İlham Əliyev həmçinin bu il yeni yollar açılacağını, Zəngilan Beynəlxalq Hava Limanının inşası başa çatdırılacağını deyib. Tarixdə heç vaxt yollar olmayan yerlərdə, ərazilərdə keçən il 700 kilometrə yaxın yollar çəkilib. Bu il Füzuli-Hadrut, Hadrut-Tuğ-Azıx mağarası, Bərdə-Ağdam, Qubadlı-Eyvazlı, Qubadlı-Mahmudlu-Yazdüzü-Ermənistan sərhədi, Kəlbəcər və Laçın rayonları ərazisində yol infrastrukturunun tikintisi, Laçın şəhərinə daxil olmadan yeni avtomobil yolunun tikintisi, Talış-Tapqaraqoyunlu-Qaşaltı-Naftalan avtomobil yollarının bu il istifadəyə verilməsi planlaşdırılır. Bundan başqa, Xudafərin-Qubadlı-Laçın, Şükürbəyli-Cəbrayıl-Hadrut, Ağdam-Füzuli, Əhmədbəyli-Füzuli-Şuşa, Əhmədbəyli-Horadiz-Cəbrayıl-Zəngilan-Ağbənd, Kəlbəcər-Laçın, Toğanalı-Kəlbəcər-İstisu avtomobil yollarının inşası da sürətlə davam etdirilir.

İlham Əliyev onu da diqqətə çatdırdı ki, ən vacib yollardan biri Toğanalı-Kəlbəcər avtomobil yoludur, çünki bu yol və 12 kilometrlik tunel çəkiləndən sonra daha Murov aşırımından keçməyə ehtiyac qalmayacaq. Azad edilmiş Zəngilan Beynəlxalq Hava Limanının ardınca Füzuli Beynəlxalq Hava Limanının istifadəyə verilməsidir, sonra isə Laçın Beynəlxalq Hava Limanının inşası isə 2024-cü ilə planlaşdırılır.

Qeyd edək ki, işğal altında qalan su anbarları da yenidən qurulur. Belə ki, 1 milyard 600 milyon kubmetr su ehtiyatı olan ən böyük su anbarı "Xudafərin", həmçinin "Qız qalası", Suqovuşan, Xaçın, Köndələnçay-1, Köndələnçay-2, Aşağı Köndələnçay, Ağdamkənd su anbarları işğal altında idilər. İndi Azərbaycan onları bərpa edərək istifadəyə yararlı hala gətirir. Qarşıdakı dövrdə isə Həkəriçay və Suqovuşan su anbarlarının tikintisi nəzərdə tutulur. Tikilib başa çatdıqdan sonra Suqovuşandan daha böyük əraziyə suyun verilməsi mümkün olacaq. Xaçınçay su anbarının və 7 kilometr uzunluğunda kanalın təmiri də layihələndirilir. Həmçinin Aşağı Köndələnçay, Köndələnçay-1 və Köndələnçay-2 su anbarlarının təmiri nəzərdə tutulur. Tərtərçay sol sahil kanalının, Ağdam, Füzuli və Cəbrayıl rayonlarının su təsərrüfatı kompleksinin yenidən qurulması, o cümlədən su mənbələrinin müəyyən edilməsi gündəmdədir. Çünki sovet vaxtında olan su mənbələri bəzi səbəblərə görə uyğun olmaya bilər. Ona görə də bu kompleks tədbirlər nəzərdə tutulur və Bərgüşad su anbarının layihəsinin hazırlanması bu il öz həllini tapmalıdır.

Prezident onu da bildirdi ki, bu yaxınlarda verilən yeni təklif əsasında Zəngilanda, ya da Qubadlıda yeni su anbarının tikintisi nəzərdə tutulur və bu kanalların inşası bizə imkan verəcək ki, yaxın zamanlarda 10 min hektarı suvarma ilə təmin edək. Yenə də demək istəyirəm ki, bütün bu işlər ümumi su təsərrüfatı sistemimizə inteqrasiya edilməlidir. Dövlət başçısı müşavirədə deyib ki, azad edilmiş bütün torpaqlarda görülmüş işlər azərbaycanın dövlət büdcəsi hesabına aparılır. Bu il Zəngilanın Ağalı kəndinin sakinləri bu il Ağalıda yerləşəcəklər, orada yaşayacaqlar. Yəni bu il Ağalı kəndinin açılışı olacaq.Dövlət başçısı müşavirədə deyib ki, azad edilmiş bütün torpaqlarda görülmüş işlər azərbaycanın dövlət büdcəsi hesabına aparılır.Bəli, görülən və görüləcək işlər bir daha göstərir ki, artıq Böyük qayıdış başlayır.Bəli, bu gün Prezident İlham Əliyev əməli ilə bir daha göstərir ki, bu sözləri heç də söz xatirinə söyləməyib. Prezident kimi Azərbaycanı tarixinin ən qüdrətli dövlətinə çevirən Azərbaycan Prezidenti bu gün başladığı işlərlə Qarabağın əvvəlki şöhrətini özünə qaytaracağını dünyaya nümayiş etdirir.

Bir sözlə, cari ilin birinci rübünün göstəriciləri bir daha onu təsdiq edir ki, Azərbaycan Prezidenti İlham Əliyevin apardığı düzgün siyasət nəticəsində çox qısa zamanda Qarabağın yenidən dirçələcəyinə, 2022-ci ildə də yeni-yeni uğurlara nail olacağına əminlik yaradır.

**RƏFİQƏ KAMALQIZI**

AKTUAL + ŞƏRH

# ABŞ Dövlət Departamenti:

## "Azərbaycanda onlarla qəbiristanlıq dağıdılıb"

Bütün bu faktlar isə məhz Beynəlxalq İnsan Haqları məhkəməsində Ermənistana qarşı qaldırılacaq və qarşı tərəf törətdiyi insani cinayətlərinə görə hüquqi cavabını verməli olacaq

**44 günlük Zəfər yürüşündən sonra işğaldan azad edilmiş ərazilərimizdə erməni vandallığını əks etdirən yüzlərlə məkanlarımız dünya ictimaiyyətinin diqqətinə çatdırıldı. Tarixi abidələrimizdən tutmuş qəbiristanlıqlaımıza qədər - azərbaycanlılara məxsus evlər, mədəniyyət incilərimiz, demək olar ki, tamamilə yer üzündən silinmişdir.**

O cümlədən, gəlinən dəhşətli nəticələrdən biri də birinci Qarabağ müharibəsi dövründə erməni faşistlərinin insanlarımıza qarşı apardıqları soyqırımı, kütləvi qətliam faktlarının təsbit olunmasıdır. Belə ki, bir sıra rayon və kəndlərimizdə aşkara çıxarılan kütləvi məzarlıqlar da həmin amilləri sübuta yetirməkdədir. Əbəs deyil ki, Azərbaycana gələn xarici media nümayəndələri, ekspert qrupları yerlərə aparılır və onlara həmin dəlillər isbat olaraq göstərilir. Artıq bu haqda bir sıra nüfuzlu beynəlxalq təşkilatlarda, qurumlarda, KİV-lərdə informasiyalar yer tutmuşdur.

**Ermənistan hissəsində bildirilib ki, 2020-ci ildə etnik erməni qüvvələri bəzi azərbaycanlı əsirləri qanunsuz şəkildə qətlə yetirib və işgəncələrə, ləyaqəti alçaldan rəftarlara məruz qoyublar və buna dair məlumatlar qeyd edilən hesabatda vurğulanıb**

Bu arada, Amerika Birləşmiş Ştatlarının Dövlət Departamentinin rəsmi saytında 2021-ci il dünya ölkələrində insan hüquqlarının vəziyyətinə dair illik hesabatında Ermənistanın Azərbaycana qarşı vəhşilikləri haqqında bir sıra informasiyalar qeyd edilib. SİA-ya daxil olan məlumata görə, hesabatın Ermənistan hissəsində bildirilib ki, 2020-ci ildə etnik erməni qüvvələri bəzi azərbaycanlı əsirləri qanunsuz şəkildə qətlə yetirib və işgəncələrə, ləyaqəti alçaldan rəftarlara məruz qoyublar və buna dair məlumatlar qeyd edilən hesabatda vurğulanıb.

Bundan əlavə, ABŞ Dövlət Departamentinin sözügedən hesabatında bildirilir ki, Azərbaycan Respublikasının Baş Prokurorluğu Kəlbəcər rayonunun Başlıbel kəndində 1993-cü ildə erməni silahlı qüvvələri tərəfindən öldürüldüyü iddia edilən azərbaycanlılara aid məzarların axtarışına başlayıb.

**Füzuli, Ağdam, Zəngilan, Kəlbəcər və Cəbrayılda azərbaycanlılara məxsus onlarla qəbiristanlığın dağıdılması ilə bağlı sübutların da üzə çıxması barədə informasiyalar verilib**




Qeyd edək ki, buna qədər artıq həmin ərazilərdə bir neçə kütləvi məzarlıq aşkara çıxarılıb, öldürülmüş insanlarımızın qalıqları ekskumasiya edilərək şəxsiyyətlərinin müəyyənləşdirilməsi üçün DNA analizinə verilib.

Eləcə də, Xocalı rayonunun Fərrux dağı istiqamətində də insanlarımızın qalıqları aşkar edilib və araşdırmalara başlanılıb. Ümid edirik ki, ABŞ Dövlət Departamentinin növbəti hesabatında Ermənistana aid olan bölmələrdə üzə çıxan bu faktlar barəsində də vurğulanacaq. Amerikanın dövlət qurumunun rəsmi saytında qeyd edilənlərlə yanaşı Füzuli, Ağdam, Zəngilan, Kəlbəcər və Cəbrayılda azərbaycanlılara məxsus onlarla qəbiristanlığın dağıdılması ilə bağlı sübutların da üzə çıxması barədə informasiyalar verilib.

**ABŞ-ın Dövlət Departamentinin rəsmi saytında yer alması da sübut edir ki, birinci və ikinci Qarabağ müharibələri dövründə erməni vəhşiliklərinin həddi-hüdudu olmayıb**

Habelə, Ermənistanın Azərbaycana dəqiq yerləri göstərilməli olan mina xəritələrini də vermədiyi göstərilir və bildirilir ki, 2020-ci ildə atəşkəsin eldə olunmasından sonra Ermənistanın daha əvvəl nəzarət etdiyi Azərbaycan ərazilərində 7 azərbaycanlı hərbçi və 29 mülki şəxs minaya düşərək həlak oldub, xeyli sayda insanlarımız isə yaralanıblar.

Beləliklə, bu kimi faktların ABŞ-ın Dövlət Departamentinin rəsmi saytında yer alması da sübut edir ki, birinci və ikinci Qarabağ müharibələri dövründə erməni vəhşiliklərinin həddi-hüdudu olmayıb və eyni zamanda, Ermənistan rəhbərliyi, eləcə də Qarabağdakı qanunsuz silahlı dəstələr və onların terrorçu liderləri Azərbaycanın Gəncə, Bərdə, Tərtər, Mingəçevir kimi şəhər və rayonlarındakı din əhalimizə qarşı ballistik raket zərbələri endiriblər, çoxsaylı insan tələfatına yol açıblar. Bütün bu faktlar isə məhz Beynəlxalq İnsan Haqları məhkəməsində Ermənistana qarşı qaldırılacaq və qarşı tərəf törətdiyi insani cinayətlərinə görə hüquqi cavabını verməli olacaq.

*Rövşən RƏSULOV*

## Professor Aygün Attar: "Qarabağ Zəfəri hər birimizə nəsib olan ən ali mükafatdır"



Prezident İlham Əliyev tərəfindən "Dostluq" ordeni ilə təltif edilməyimi böyük qürur hissi ilə qarşıladım. Can Azərbaycana xidmət etmək hər zaman həyatımın mənası olub. Həmişə hesab etmişəm ki, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə, qəhrəman şəhid və qazilərimizin qanı hesabına qazanılan Qarabağ Zəfəri hər birimizin həyatına nəsib olan ən ali mükafatdır.

Bu fikirləri Türkiyə Prezidenti yanında Təhlükəsizlik və Xarici Siyasət Şurasının üzvü, Türkiyə-Azərbaycan Dostluq, Əməkdaşlıq və Həmrəylik Fondunun rəhbəri professor Aygün Attar AZƏRTAC-a açıqlamasında ifadə edib.

Ümummilli lider Heydər Əliyevin "Bir millət, iki dövlət!" ifadəsini xatırladan professor Aygün Attar azərbaycançılıq ideologiyasının uğurla davam etdirilməsinin əhəmiyyətinə, şanlı Zəfər sayəsində Azərbaycanın səy göstərdiyi regional sülh prosesinin tarixi missiya olmasına və sair mühüm məsələlərə toxunaraq Şuşanın 2023-cü ildə türk dünyasının mədəniyyət paytaxtı elan edilməsini milli qürurumuzun yüksəlişi kimi dəyərləndirib.

Xatırladaq ki, Prezident İlham Əliyevin 2022-ci il 15 aprel tarixli Sərəncamı ilə professor Aygün Attar Azərbaycan ilə Türkiyə arasında dostluq və əməkdaşlıq əlaqələrinin inkişafında xüsusi xidmətlərinə görə "Dostluq" ordeni ilə təltif edilib.



# MEDİA

## silsilə seminarlara başlayıb

*Medianın İnkişafı Agentliyi (MEDİA) ilə ADA Universitetinin imzaladığı Əməkdaşlıq Memorandumu çərçivəsində "Media və kommunikasiya siyasəti medianın gözü ilə" mövzusunda seminarlara başlanılıb.*



MEDİA və ADA Universitetinin İnkişaf və Diplomatiya İnstitutunun birgə təşkilatçılığı ilə keçirilən seminarlar dövlət sektorunda fəaliyyət göstərən qurumların mətbuat xidmətlərinin rəhbərləri, ictimaiyyətlə əlaqələr üzrə məsul əməkdaşları üçün nəzərdə tutulub. Seminarın açılış mərasimində çıxış edən ADA Universitetinin İnkişaf və Diplomatiya İnstitutunun direktor müavini Aygün Hacıyeva ilk seminarların təşkil edilməsindən və onların əhəmiyyətindən danışıb.

ADA Universitetinin prorektoru Fariz İsmayılzadə Medianın İnkişafı Agentliyi ilə əməkdaşlıq təcrübəsinin uğurunu məmnunluqla qeyd edib. Vurğulayıb ki, media və kommunikasiya kimi vacib sahədə islahatların həyata keçirilməsində Universitetin təlim və tədqiqat potensialından istifadə edilməsi bu mənada ən qabaqcıl elmi nəzəriyyələrin və təcrübələrin tətbiqi və ADA-nın beynəlxalq əməkdaşlıq şəbəkəsindən istifadəyə imkanlar açır.

Medianın İnkişafı Agentliyinin İcraçı direktoru Əhməd İsmayılov bildirib ki, dövlət orqanları (qurumları) ilə media subyektləri arasında əməkdaşlıq münasibətlərinin möhkəmləndirilməsinə şərait yaratmaq, qarşılıqlı etimadın artırılması ilə əlaqədar tədbirlər həyata keçirmək Agentliyin əsas vəzifələrindəndir. O, belə silsilə seminarların keçirilməsinin vacibliyini vurğulayıb.

Prezident Administrasiyasının Kommunikasiya siyasəti sektorunun müdiri Cavid Musayev bildirib ki, Medianın İnkişafı Agentliyinin təsis olunduğu gündən etibarən media sahəsinin inkişafı istiqamətində silsilə tədbirlər həyata keçirilir. O qeyd edib ki, bu istiqamətdə ADA Universiteti ilə sıx əməkdaşlıq gözəl təşəbbüsdür.

İki həftə davam edəcək silsilə seminarların məqsədi peşəkar əlaqələrin qurulması, kommunikasiya strategiyalarının səmərəli şəkildə işlənməsi, gündəmin formalaşmasına təsiri, gündəmə uyğun proaktiv və reaktiv fəaliyyətin planlaşdırılması, qurumdaxili kommunikasiya və komanda ruhunun artması, ənənəvi və sosial media ilə İşləyərək daha keyfiyyəti məzmunun yaradılmasına nail olmaqdır. Seminar yerli və xarici mütəxəssislərin çıxışları, interaktiv müzakirə sessiyaları, qrup tapşırıqları hissələrindən ibarət olacaq. Qeyd edək ki, MEDİA bununla da media nümayəndələri, jurnalistlər üçün silsilə seminarlara başlayır.

# “Status” istəyənlər

## “QURBANLIQ STATUSUNDA”

**Yenə də Ermənistanın baş naziri erməni cəmiyyətində müəyyən qüvvələr tərəfindən hədəfə alınıb. Səbəb də onun Brüsseldə verdiyi vədləri və bu vədlərinə görə səy göstərdiyi kimi görünməsidir. Xüsusən bu dəfə Nikol Paşinyan öz xalqına açıq-aşkar bəyan edir ki, niyyətində israrlıdır və sülh sazişindən başqa ermənilərin çıxış yolu yoxdur. Görünür Nikol yaxşı başa düşür ki, çabalarının faydası yoxdur və bu dəfə uçurumun lap kənarındadır.**

TƏHLİL

Bilirik ki, bir müddətdi Ermənistanda revanşistlər deyilən qüvvə peyda olub və sərsəm fikirləri ilə erməni cəmiyyətini yenə də qaranlığa sürükləyir. Yəni, bütün gücü və qüvvəsi ilə Azərbaycanın qarşısında müharibə zamanı cəmi 44 gün dayana bilməyənlərin indi yox dərəcəsində olan resurslarla revanş iddialarının nə dərəcədə gülünc olduğu bəlli məsələdir və bu fikirlərin erməni cəmiyyəti sözün əsl mənasında qaranlıq olduğu da günün reallığıdır. Əbəs yerə deyil ki, Nikol Paşinyan so çıxışlarının birində ”qurbanlıq” olmaq istəmədiyini bəyan edib, çünki yaxşı başa düşür ki, bu dəfə nəticə ermənilər üçün daha dəhşətli ola bilər.

Nikolun tərəfdarlarının, ən yaxın adamlarının bir müddətdir ki, erməni cəmiyyətində təbliğat apardıqları, sülh yolundan başqa ermənilərin çıxış yolunun olmaması barədə onları inandırmaları üçün çalışmaları da sirr deyil. Bunu ermənilər özləri də bilirlər, hətta bu barədə Ermənistana məxsus mətbuat səhifələri də fasiləsiz olaraq açıq-aşkar yazırlar. Məsələ burasındadır ki, son zamanlar erməni baş nazirinin sülh sazişi ilə bağlı niyyətini ən azından tam aydın şəkildə bildirməsi sərsəm ”miatsum” tərəfdarları ilə onun tərəfdarları arasındakı qarşıdurma yaradıb. Ümumiyyətlə, hər zaman xaos, qarışıqlıq, qarşıdurmalarla yadda qalan bu işğalçı ölkədə yenə də ara qızışıb, məzhəb itib.

Ermənilərin Nikol Paşinyanı ”xain”, ”satqın”, hətta ”türklərə satılan” adlandırdıqlarının dəfələrlə şahidi olmuşuq və indi bu barədə fikirlər yenə də İrəvan meydanlarında səsləndirilir. Doğrudur, nəinki başqaları, hətta ermənilər özləri də bilirlər ki, Paşinyan sülh dediyi məsələdə hələ də tərəddüd edir və kim bilir hələ hansı hiylələr, hansı oyunlar haqqında düşünür. Bu zamana qədər şeytanın belə ağlına gəlməyən uydurmalara, bəhanələrə, cürbəcür yollara əl atan bu erməni baş nazirinin sülh danışıqları barədə dediklərinə özünün şübhə etdiyi göz önündədir, çünki bu manipulyator sülh danışıqları, Azərbaycanla dialoq barədə danışanda sözlərinin arasında bir qondarma, dırnaqarası ”arsax” sözünü də əlavə edir. Bu isə onun hələ də ikibaşlı oyunlar barədə ümid etməsə də, xəyal etdiyini göstərir. Hər bir halda erməni baş nazir sülh danışıqlarının yeganə yol olduğunu təmsil etdiyi cəmiyyətə başa salmağa çalışır. Amma bu, erməni cəmiyyətində birmənalı qarşılanmır və radikal revanşistlər ona, onun fikirlərinə qarşı olduqlarını bildirirlər. Bu narazılıqlar daha çox küçə nümayişləri şəklində özünü biruzə verir və Ermənistanda bu dalğanı izləyənlər bilirlər ki, həmin radikallar heç də bir qüvvə hesab olunmurlar və bunu bilən Nikol onları heç hesaba da almır. Paşinyan bilir ki, aksiyalara gələn insanlar erməni cəmiyyətindən azlıq təşkil edir və onun fikrini döndərmək üçün onların aksiyasının mənası belə yoxdur. Hətta bu şəraitdə Nikol öz qərarı ilə belə erməni cəmiyyətində səs çoxluğuna sahibdir, bunu aprelin əvvəlində ”Gallup”-un keçirdiyi rəy sorğusu da təsdiqləyir və belə olan halda revanşistlərin belə səs-küy salmaları bütövlükdə Ermənistanın özünün əməlli-başlı baş ağrısına çevrilə bilər.



Reallıqları ən yaxşı, ən yaxından görən indi Nikol Paşinyan özüdür və Brüsseldə o bir daha əmin oldu ki, Azərbaycanın yaratdığı reallıqlar nəinki Avropada, bütün dünyada qəbul olunub. Ermənistanın XİN rəhbəri Mirzoyan Moskvaya yollandıqdan və orada həmkarı Lavrovun İrəvana ünvanladığı mesajlarından sonra Paşinyan ona da əmin oldu ki, Rusiya belə bu reallıqları qəbul edir. İndi böyük rus qardaşlarından kömək ummağı belə mənasız hesab edən erməni baş nazir öz xalqına onların acı gerçəklik hesab etdikləri həqiqətləri birmənalı şəkildə bəyan etməsi anlaşılandır. Anlaşılan odur ki, Nikol ən azından sülh sazişini ən tez zamanda imzalamaq istəyən kimi görünür. Çox güman ki, Rusiyanın Ukraynada məğlubiyyətinin fonunda, eləcə də bütün dünyada Ermənistanın artıq olmayan nüfuzunun tamamilə sıfıra enməsi fonunda Paşinyan sülh sazişini uzatmağı ölkəsi üçün fəlakət hesab edir və yalnız bunda haqlı ola bilər. O, yaxşı başa düşür ki, bu məsələni uzatmaq ən azından Ermənistana baha başa gələ bilər. Bu barədə erməni baş nazir parlamentdə çıxışı zamanı da açıq-aşkar bəyan edib və yeni müharibə qorxusu barədə xəbərdarlıq edib, hansıki bu, bütövlükdə Ermənistan üçün nə demək olduğunu ermənilər özləri hər kəsdən yaxşı bilirlər. Bilirlər ki, növbəti qarşıdurma Ermənistan üçün ümumiyyətlə son deməkdir və bu ölkə öz mövcudluğunu bələliklə şübhə altına ala bilər. ”Biz qurbanlıq statusundan qurtulmalıyıq”, deyən Nikol Paşinyan onu da etiraf edib ki, belə getsə gələcək nəsillər də bu ”status”-da qala bilərlər.

Bəli, bir zamanlar Qarabağ barədə xüsusi dırnaqarası ”status” tələb edənlər indi ”qurbanlıq quzu statusunda” olduqlarını etiraf edirlər. Bir zamanlar özləri üçün xüsusi imtiyazları istəyənlər indi etiraf edirlər ki, çıxış yolları yoxdur. Fərrux əməliyyatlarından sonra ermənilər yaxşıca anladılar ki, revanşist fikirləri ortaya atmaqla özlərini aldadırlar. Bunu Nikol Paşinyan parlamentdəki çıxışı zamanı da deyib, etiraf və xəbərdarlıq edib. ”Bu zamana qədərki yolla getsək, hər şeyi hissə-hissə təhvil verməyə başlayacağıq və artıq bəsdir bir-birimizi aldatdıq”, deyən erməni baş nazir məhz ermənilərin düşdüyü vəziyyəti, reallıqları göz önündə canlandırıb və dırnaqarası ”status” istəyənlərin ”qurbanlıq quzu statusunda” olduğunu xatırladıb.

***İnam Hacıyev***



MƏTLƏB
Metlebsalahov@mail.ru

# Sosial şəbəkələr ailə dəyərlərimizə “od qoyur!”

**Sosial şəbəkələr telefon menyüsünə köçəndən sonra, dünyadakı millətlər nə itirdilər bilmirəm, amma Azərbaycanda on illiklərdir bu günümüzə qədər gəlib çatan ailə kökləri param-parça olub getdi tarixin məzarlığına. Sanki yeni əsrin texnologiyası min illik AİLƏ DƏYƏRLƏRİMİZ üçün əsl ölüm kabusuna çevrildi bir anlığına. Böyük-kiçik adəti, getdiyin ocağa və sevdiyin insana bir ömür sədaqət və hörmət, bir yastığa baş qoyub sağlam və dəyərli övladlar yetişdirmək, sahib olduğun AİLƏNİ QORUMAQ üçün bütün çətinliklərə sinə gərmək, hər xırda səs-küy üçün ailəni dağıtmamaq ənənəsi vatçapın, tvitterin qarşısında yox olub getdilər.**

Dünyadakı ağıllı toplumlar bu texnologiyadan irəli getmək, daha çox inkişaf etmək və daha çox qazanmaq üçün yararlandılar, onların əksinə bizlər Novruzəli əsrində olduğu kimi, sosial şəbəkələrdən sürətlə geri getmək üçün ”yararlandıq”. Min dəfə təəssüf, amma olan fakt budur. Həmin bu sosial şəbəkələrdə min illik dəyərlərimizi köhnə əşya kimi, ağınabozuna baxmadan süpürüb atdıq çölə. Evli qadınlar və kişilər sosial şəbəkədən virtual eşq üçün yararlanıb neçə-neçə ocağı rəzil etdilər, evli qadınlar uşaqlarını evdə qoyub subay gənclərə qoşulub baş götürüb getdilər...

Yeni texnologiya əsrinin vatçapı, tvitteri milli genefondumuz üçün erməni faşizmindən daha betər düşmən oldu bizlərə. Erməni fazişmi əsrlərdir Azərbaycan xalqına qarşı soyqırımlar törətdi, amma bu xalqın milli dəyərlərini özündən qoparıb ala bilmədi. Bu xalq amansız düşmən qarşısında əyilmədi, milli kimliyini, bir xalq olaraq varlığını son ana qədər qoruya bildi və sonda qələbə zəfəri yaşadı. Amma sosial şəbəkələr qarşısında nə yazıq ki, artıq ağ bayraq qaldırmışıq. Mübahisə filan etməyin, bu gün mənəvi dəyərlərimiz sosial şəbəkələrdə erməni genosidindən daha dəhşətli şəkildə məhv edilir, yaddaşlarımızdan və qanımızdan silinir. Sahibsiz efirlər gey gədələrin, min yataqdan ”üzüağ çıxan” ləçərlərin reklam meydanına çevrilib. Kişilik əvəzinə nakişilik, qulağı sırğalı, cinsi oriyentasiyasını itirmiş geylik reklam olunur. Yalanmı deyirəm, - qəti!

Ən yüksək dağ kəndlərində yaşayan, 2-3 uşağı olan evli gəlinlərin vatçapda tanış olub ”virtual aşk” yaşadığı yad kişilərə qaçması, halalca ərinin papağını el-oba içində yerə soxması, tifil balalarını bir ömür boyu gözükölgəli, başıaşağı etməsi, efirləri başına alan rəzil ”proqramlarda” başqa kişiyə qaçan arvadını tapmaq üçün studiyalara üz tutan biqeyrət ”kişiciklərin” fəryadı, yalançı evlilik oyunlarının cəmiyyəti başına alıb getməsi artıq adi hala çevrilib...

Sosial şəbəkələr həm də ailə dəyərlərinin məhvinə və boşanma biznesinə geniş meydan açdı. Min təəssüf ki, bu gün bir sıra xanımlar ailə dəyərlərinə daha çox biznes hədəfi kimi baxırlar. Cəmi 3-5 ay, ən uzağı 1 ildən çox çəkən ”evliliklər”, əslində, boşanma biznesinin pik həddə çatdığını ortaya qoyur. Sadəcə, bir uşaq dünyaya gətirmək, dərhal sonra min bir bəhanə ortaya atıb boşanmaq, qanunvericilikdəki biabırçı boşluqdan yararlanıb aliment, mənzil, əmlak tələb edib istəyinə çatmaq, ”əzabkeş xanım” obrazına girib, sonradan həyatını rahat və istədiyi kimi davam etdirmək əsas məqsəddir. Və min təəssüf ki, qanunvericilikdəki boşluqlara görə bu istəklərinə də çatırlar.

Bələləri anlamır ki, atasız böyüyən, ata qayğısı və nəfəsi duymayan uşaqlar həm mənəvi, həm də şəxsiyyət kimi şikəst böyüyəcəklər. Bu fakt, bir uşağın gələcək taleyi üçün ölümcül təhlükədir. Sözsüz ki, mən ailə-uşağını ac-yalavac qoyub başqa qapılarda sürünən ”kişiciklərin” əlindən bezara gələn, amma öz həqiqi ANALIĞINI hər şeydən uca tutub bir ömür boyu tək-tənha balalarına sahiblik edən dəyərli qadınları bu sırada tutmuram. Bu cür qadınlarımız, sözün əsl mənasında, baş tacımızdır. Əsl Azərbaycan qadınının adına şərəf gətirən analar...

Amma yuxarıda qeyd etdiyimiz faktlar ilk hədəf kimi AİLƏ DƏYƏRLƏRİMİZİ məhv edir, özü də dəhşət şəkildə! İndi əksər qızlar bir ömür boyu sevdiyi insanla yastığa baş qoymaq, gözəl ailəyə sahib olmaq, o ailəni qoruyub saxlamaq üçün ən kiçik çətinliklərə belə dözmək fikrində deyil. İndi beş-üç aylıq ”evlilik”, bir uşaq sahibi olub min bəhanə ilə məhkəmələrə üz tutmaq, tez-tələsik aliment və ev sahibi olmaq, və... əsas hədəf ”SƏRBƏST YAŞAMAQ” haqqında düşünürlər. Boşan və ”istədiyin həyatı” yaşa, vəssalam!

Belə qadınlar boşanan kimi rəzil efirlərdə üzdəniraq ”jurnalist”, ”psixoloq”, ”ekspert” libasına bürünüb milyonlara əxlaq dərsi keçməyə girişirlər. Məqsəd? - yeni ”həcilər” tapmaq, avtomobil, mənzil sahibi olmaq. Təəssüf, min təəssüf ki, qanunvericilikdəki boşluqlar da ”boşanma biznesi” üçün meydan açır. Boşanmanın səbəbi bilinmədən, əsası olmadan istənilən boşanma həvəskarı üçün qapılar taybatay açıqdır.

Sözsüz ki, bu, hər kəsin hüququdur, həm kişinin həm də qadının. Bivec, xəyanətkar ərdən bezən qadın üçün son çarə boşanmadır, burası bəllidir. Amma ailə yükü daşımaqdan, ailə-uşağa baxmaqdan bezib ”həci şotuna” yaşamaq üçün alışıb yananlar üçün bir ”stop” qoyulmalıdır qanunvericilikdə. Ən azı səbəbsiz boşanma zamanı əmlak və aliment qadağası qoyulsa, min dəfə əminəm ki, məhkəmə qapıları Moskvadakı boş piştaxtalar kimi seyrələcək. Çünki boşanmaq həvəsi aliment və əmlak üzərində bərqərar olub. Bu ikisi olmayandan sonra kimdir boşanmaq üçün sino gedən? Çünki boşanandan sonra alimentsiz və ev-eşiksiz öz zəhməti və məşəqqətlə uşaq böyütmək belə ”həvəskar”ların işi deyil. Sözsüz ki, ”həci” tapmaq şansı yüksək olanlardan başqa...

# İndiki gənclər pulsuz nə görürlərsə, onu əldə etmək istəyir ŞƏHƏR SAKİNLƏRİ

**Dünən məşhur blogger Hüseyn Həsənov Bakıya səfər edib. Məşhur bloggeri görmək üçün minlərlə insan ticarət mərkəzinə axın ediblər. Yaranan izdiham sosial şəbəkələrdə birmənalı qarşılanmağa başladı. SİA mövzu ilə bağlı şəhər sakinlərinin fikirlərini öyrənməyə çalışıb.**



**Şəhər sakini Gülxar Qəhrəmanova:** ”İndiki gənclərin axırı heç yaxşı yerə getmir. Bizim vaxtımızdakı gənclər bu cür deyildilər. İndiki gənclər pulsuz nə görürlərsə, onu əldə et-



mək istəyirlər. Bu biabırçılıqdır”.

**Şəhər sakini Saleh Salehli:** ”Fikrimcə, indiki gənclər populyarların, bloggerlərin arxasınca getməyə çalışırlar. Onlar düşünmürlər ki, bunun axırı hara gedir. Bildiyimiz kimi dünən məşhur blogger Bakıya gəldi və ona görə böyük bir izdiham yaranmışdı. Bu, ilk növbədə indiki pandemiya şəraitini nəzarətə alsaq, çox bö-



yük bir təhlükədir. Koronavirusa yoluxma sayı azalsa da, hələ də təhlükə qalmaqdadır. Ora yığışanların böyük bir qismi gənclər idi. Düşünürəm ki, bu çox yersiz idi. Çünki gənclər pulsuz ”iphone”na görə yığışmışdılar. Həmin blogger də gələndə heçnə hədiyyə vermədən getdi”.

**Şəhər sakini Günel Əliyeva:** ”Hər hansı bir məşhur bloggerin yerinə şəhid anası gəlir və ya hər hansı bir uşaq üçün kampaniya keçirilir de-



sələr, dünənki kimi izdiham yaranmazdı. Dünənki blogger Hüseyn Həsənov xaricdə bizi təmsil edir. Amma, 44 günlük Vətən müharibəsində həmin şəxs sadəcə bir paylaşım etdi. Hazırda keçmiş unuduldu. Minlərlə insan sırf pulsuz ”İphone”a görə ora yığışdı və bu çox acınacaqlı bir haldır”.

**Şəhər sakini Ələsgər Fətullayev:** ”İndiki gənclərin axırı yaxşı yerə getmir. Çünki onlar nə etdiklərini bilmirlər. Bizim dövrümüzdə gənclər artıq işləyirdi, ailə saxlayırdılar. Amma



indikilər bunların heç birini düşünmürlər. Öz üzərlərinə öhdəlik, məsuliyyət götürmürlər”.

**Şəhər sakini Xədicə Abbaslı:** ”Ora toplaşanların demək olar ki, hamısı pulsuz ”iphone” qazanmağa gəlmişdilər. Hansı ki, adi bir endirim



olanda insanların ölümü ilə nəticələnən izdihamlardan biridir. Hazırda indiki gənclər elə bir haldadır ki, hər şeyi hazır əldə etmək istəyirlər. Bu heç də düzgün bir yanaşma deyil”.

**Şəhər sakini Məhəmməd Mahmudzadə:** ”Dünənki izdiham çox



mənasız idi. Çünki indiki gənclər hər şeyi hazır əldə etmək istəyirlər. Əziyyət çəkib, pul qazanmaqdansa boş-boş gəzməyi üstünlük tuturlar. Bu, heç düzgün deyil. Belə etməklə indiki gənclərin axırı heç də yaxşı yerə getmir”.

**Şəhər sakini Tükəzban Quliyeva:** ”İndiki cavanlara söz tapa bilmirəm. Pulsuz telefona görə özlərini nə hala saldılar. İndikilər sanki ailə tərbiyəsi görməyiblər. Bu çox acınacaqlı vəziyyətdir”.

***Arzu Qurbanzadə***

# “Bu vəhşiliklərin hamısı dünyaya tanıdılmalıdır”

”ABŞ Dövlət Departamentinin Ermənistanın törətdiyi cinayətlərlə bağlı məlumat verməsi müsbət bir haldır”. Bu fikirləri SİA-ya açıqlamasında Milli Məclisin deputatı Asim Mollazadə bildirib. Onun sözlərinə görə, ABŞ Dövlət Departamenti 2021-ci il dünya ölkələrində insan hüquqlarının vəziyyətinə dair illik hesabatında 2020-ci ildə etnik erməni qüvvələrinin bəzi azərbaycanlı əsirləri qanunsuz şəkildə qətlə yetirdiklərinə, işgəncəyə, ləyaqəti alçaldan rəftara məruz qoyduqlarına dair rəsmi saytlarında məlumatlar yayılıb: ”Bu məlu-



matlar çox cüzi olaraq öz əksini tapıb. Həm 90-cı illərin əvvəlində, həm 2-ci Qarabağ müharibəsində mülki əhalinin qətlə yetirilməsi ilə bağlı geniş məlumat verməli idilər. Gəncədə, Tərtərdə, Bərdədə baş verən qətliamlarla, həmçinin bir sıra digər hərbi cinayətlərlə bağlı məlumatları verməli idilər. Lakin bunun çox az bir hissəsini bildirmişlər. Təəssüflər olsun ki, Ermənistanın törətdiyi vəhşiliklərə çox vaxt göz yumulur. Amma Azərbaycana, azərbaycanlılara qarşı törədilən erməni vəhşiliklərinin bir çox sənədlərdə əks olunması Ermənistanın necə bir vəhşi dövlət olduğunu dünyaya çatdırır. Ermənilər torpaqlarımızı işğal edərkən minlərlə insanımızı qətlə yetirmişdir, işğal olunmuş ərazilərimizdə tarixi, dini, mədəniyyət abidələrimizə ziyan vurmuşlar. Bu vəhşiliklərin hamısı dünyaya tanıdılmalıdır.”

***Abutel İlhamqızı***

# İsveç nəşri:

## “Qarabağda gərginlik Ermənistanın hərbi qüvvələrinin regionda qalması ilə bağlıdır”

**Qarabağda gərginlik Ermənistanın hərbi qüvvələrinin regionda qalması ilə bağlıdır. Bu başlıqla Azərbaycanın İsveçdəki səfiri Zaur Əhmədov ”Dagen.se” saytında cavab məqaləsində çıxış edib.**

Ölkəmizə qarşı əsassız ittihamlarla çıxış edən Svante Lundqrenin məqaləsində bir çox cəhətdən yalnışlığa yol verdiyini dilə gətirən səfir, Ermənistanın keçmiş Dağlıq Qarabağ regionu və 7 ərazisi də daxil olmaqla Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazilərinin təxminən 20 faizinin işğalını xatırlatmamaqla, əvvəlki münaqişənin fonunu təhrif etdiyini bildirib.



# Spänningarna i Karabach beror på Armeniens kvarvarande militära styrkor

Replik. Angående de ogrundade påståendena om förstörda gasledningar är det uppenbart att Armenien utnyttjar de tekniska problem som uppstått till följd av ogynnsamma väderförhållanden i området som ett verktyg för politisk manipulation, skriver Zaur Ahmadov, Azerbajdzjans ambassadör till Sverige.

Förstora

DEBATT

Så snart fredsavtalet mellan Armenien och Azerbajdzjan tecknas kommer en varaktig fred och stabilitet i södra Kaukasus att bli möjlig, skriver Zaur Ahmadov. Bilden: En soldat ur den ryska fredsbevarande styrkan bevakar Dadivank, en armenisk apostolisk kyrka från 800-talet. (AP)

Av Zaur Ahmadov , Azerbajdzjans ambassadör till Sverige
14 april 2022 06:00

**Svante Lundgrens** artikel i Dagen 31/3 är vilseledande på många sätt, då den förvränger den tidigare konfliktens bakgrund genom att undvika att nämna Armeniens ockupation av runt 20 procent av Azerbajdzjans internationellt erkända territorium, inklusive den tidigare regionen Nagorno-Karabach och de sju intilliggande distrikten som ägde rum mellan 1990-talet och år 2020. Denna ockupation resulterade i en fördrivning av 700 000 azerbajdzjaner och fördömdes av FN:s säkerhetsråds resolutioner 822, 583, 874 samt 884. Dessa resolutioner krävde att Armenien omedelbart och villkorslöst skulle dra tillbaka sina trupper. Azerbajdzjan använde sig av sin legitima rätt till självförsvar som finns angiven i FN-stadgans artikel 51, implementerade Säkerhetsrådets resolutioner och befriade sitt territorium.

700.000-dən çox azərbaycanlının qovulması ilə nəticələnən işğalın BMT Təhlükəsizlik Şurasının dörd qətnamələri ilə pislənildiyini xatırlandığı məqalədə deyilir, ”Azərbaycan BMT Nizamnaməsinin 51-ci maddəsində təsbit olunmuş qanuni özünümüdafiə hüququndan istifadə edərək, Təhlükəsizlik Şurasının qətnamələrini yerinə yetirib və ərazisini özü azad etməyə məcbur olub”.

Ermənistanın əvvəllər işğal etdiyi ərazilərdə bir milyondan çox mina yerləşdirdiyi və sonradan təhvil verilən mina sahələrinin xəritələrinin cəmi 20-25 faiz düzgün olduğu da qeyd edən Zaur Əhmədov vurğulayıb ki, bu minalar müharibə başa çatdıqdan sonra ikisi jurnalist olmaqla 36 azərbaycanlının həyatına son qoyub, daha 160 nəfərə xəsarət yetirib.

İkinci Qarabağ müharibəsi zamanı Ermənistan müharibə yerindən uzaq şəhərlərə hücumlar həyata keçirməsinə də toxunan diplomat, bu halların Human Rights Watch və digər müstəqil təşkilatlar tərəfindən qeydə alındığını diqqətə çatdırıb.

”Bu hücumlar müharibə cinayətidir və beynəlxalq ictimaiyyət tərəfindən qəti şəkildə pislənməlidir. Bununla yanaşı, Azərbaycana aid çoxlu sayda əhəmiyyətli mədəniyyət abidələri və obyektləri dağılması da müharibə qanunlarının ciddi pozuntusudur”, - deyə məqalədə vurğulanır.

Qarabağdakı son gərginliyə də toxunulan mətndə, Ermənistanın hələ də geri çəkmədiyi hərbi qüvvələrin destruktiv təsiri qeyd edilib.

Sülh sazişi öhdəliklərinin Ermənistan tərəfindən pozulmasına diqqət yetirən Azərbaycanın İsveçdəki səfiri bildirib ki, erməni qüvvələrinin çıxarılması müddəası hələ də yerinə yetirilməyib və ərazidə qalan silahlılar mütəmadi olaraq təxribat törətməkdə davam edir. Məqalədə habelə beş prinsipdən ibarət Azərbaycan Ermənistana beynəlxalq hüquq əsaslanan sülh sazişinin bağlanması haqqında da bəhs edilib. Səfir Zaur Əhmədovun sözlərinə görə Ermənistan və Azərbaycan arasında sülh sazişi imzalandığı təqdirdə, Cənubi Qafqazda davamlı sülh, sabitlik mümkün olacaq və Şimali Avropa əməkdaşlığı regional əməkdaşlıq üçün ibrətamiz model rolunu oynaya bilər. Qeyd edilib ki, bu günlərdə Avropa Şurası Prezidentinin vasitəçiliyi ilə Azərbaycan Prezidenti ilə Ermənistanın baş naziri arasında Brüsseldə keçirilən görüş sülh prosesində irəliləyişin olacağına ümidləri artırır.

TƏRS BAXIŞ

# Putin-Paşinyan görüşü: aprelin 19-dan sonra nə gözlənilir?

*Və ya Kreml iki seçimdən birini etməli və son qərarına gəlməlidir!*



**Məlum olduğu kimi, aprelin 19-da Ermənistanın baş naziri Nikol Paşinyanın Moskvaya rəsmi səfəri gözlənilir. Proseslərin dinamikliyinə nəzər yetirsək həm də belə bir ehtimal irəli sürmək olar ki, Kreml fəaliyyətini aktivləşdirmək üçün cəhdlər göstərəcək. Lakin əsas budur ki, həmin aktivliyin hansı məcraya doğru yönələcəyi anlaşılsın.**

Artıq danılmaz faktdır ki, 44 günlük müharibənin nəticələrindən sonra Azərbaycanın regiondakı rolu və əhəmiyyəti daha da artıb. Ancaq etiraf edilməlidir ki, proseslər fərqli cəhətdən də inkişaf edir. Misal üçün, Moskva Minsk nəinki qrupu çərçivəsində, eləcə də Ukrayna böhranından sonra Paris və Vaşinqtondan qopub və adıçəkilən üçlük format sözün əsl mənasında canını tapşırıb.

Beləliklə, Rusiyanın regional dövlət olaraq Qarabağ mövzusunda, yəni üçtərəfli bəyanat(lar)ın realizə edilməsi proseslərində önə çıxması imkanı yaranıb. Düzdür, bu məsələdə Avropa İttifaqının də önə çıxdığını vurğulaya bilərik və son Brüssel görüşü də həmin məsələni ehtivam edir. Ancaq bu günün özündə də Kreml rıçaqlarını itirməməsi, Bakı ilə İrəvanın arasında yeganə vasitəçi rolunu oynaması və kənarda qalmaması üçün əlində olan bütün imkanlarından maksimum istifadə etməyə çalışır. Ən azından, bu gün Azərbaycanın Qarabağ regionunun ərazisində, daha dəqiq desək, erməni əhalisinin yaşadığı bölgələrdə müvəqqəti yerləşmiş Rusiya sülhməramlıları kontingentinin (RSK) fəaliyyəti həmin imkanlardan biridir. Düzdür, RSK bir sıra hallarda fəaliyyətinə məsuliyyətsiz yanaşır, hələ də qanunsuz erməni silahlıları və onların terrorçu liderləri ilə təmaslar qurur, separatçılarla necə deyərlər, canbir olduğunu nümayiş etdirir, amma fakt budur ki, onlar həmin ərazilərdə qalmaqdadırlar...

### Rusiya bu imkanlardan doğru yöndə istifadə edə bilərmi?

Digər tərəfdən, üçtərəfli bəyanata əsasən, bugünkü Ermənistan ərazisindən keçməli olan nəqliyyat-kommunikasiya layihələri məsələsində də Rusiyanın müəyyən rolu mövcuddur, lakin uzanan proses göstərir ki, Moskva bu yükün altından ya çıxa bilmir, yaxud da pərdəarxası münasibətdə həmin prosesin gecikməsinə şərait yaradır. Halbuki, Rusiya regional əhəmiyyətini sübut etmək üçün post-münaqişə dövründə tamamilə fərqli mövqe nümayiş etdirə bilərdi və bu imkanı ona məhz Azərbaycan vermişdi. Ancaq gəlin görək, Rusiya bu imkanlardan doğru yöndə istifadə edə bilərmi? Onu da diqqətə alsaq ki, Azərbaycanla Rusiya arasında müttəfiqlik bəyannaməsi imzalanıb, bu zaman Rusiyanın atdığı hər addımında daha diqqətli olması zərurətə çevrilməli idi. Təəssüf ki, biz bu amilləri Moskvanın qeyri-səmimi davranışı fonunda hələ ki, müşahidə etmirik...

Və ən əsası, bu gün Rusiyanı narahat edən ən önəmli reallıq regionda Qərbin rolunun azalmasını istəyən Moskva Bakı ilə sıx münasibətlərdə olan Ankaranın da sürətlə artan rolundan qısqandığını gizlətmir.

### Qərb yeni mərhələdə məhz Aİ-nin konsultativ və maliyyə dəstəyi timsalında regionumuza daxil olub

Belə olan halda ortadakı nəticə də belədir: 2020-ci ilin 10 noyabr üçtərəfli bəyanatından sonra, həmçinin 2021-ci il boyu, o cümlədən, 2022-ci ilin birinci rübü ərzində Rusiya özünün fəaliyyəti, yaxud fəaliyyətsizliyi ilə müharibədən qabaqkı yanaşma strategiyasını saxlayıb. Bizans siyasətinin "həm bizə, həm də sizə" vasitəsini əsas götürən Rusiyanın belə addım atması da söz yox ki, suallar doğurmaqla yanaşı, həm də bir çox hallarda qıcıq, hiddət yaradır.

Bəs nəticə nədir? Gündəlikdə olan heç bir məsələ (qanunsuz erməni silahlılarının Azərbaycan ərazisindən çıxarılması, dəhlizin açılması və s.) həll olunmayıb. Eyni zamanda, gündəliyə Avropa İttifaqı qoşulub. Qərb bu yeni mərhələdə məhz Aİ-nin konsultativ və maliyyə dəstəyi timsalında regionumuza daxil olub. Üstəlik, Qərbin prosesə qoşulması həm də Ermənistanı qane edir.

### Lavrovun Mirzoyanla görüşü zamanı "erməni maraqlarının qurban verilməsi" fikirlərini unutmamalıyıq!

Azərbaycan isə ona görə imtina etmədi ki, Bakının region üzrə özünün gündəmi mövcuddur və qarşıya qoyulan məqsədlərinə planlı şəkildə nail olur. Belə ki, Aİ öz neytrallığını qoruyur. Üstəlik, Fransa XİN-nin, ABŞ Dövlət Departamentinin və Rusiya XİN-nin informasiya relizləri nümayiş etdirir ki, ortada ciddi fikir ayrılıqları mövcuddur. Yeri gəlmişkən, Rusiyanın xarici işlər naziri Sergey Lavrovun erməni həmkarı Ararat Mirzoyanla görüşü zamanı birincinin açıq-aşkar ermənilərin mövqeyinə dolayı dəstək göstərməsi də diqqətdən yayınmadı. Misnk qrupunun fəaliyyətsizliyi barədə danışarkən o iddia etdi ki, üçlük formatın Fransadan və ABŞ-dan olan həmsədrləri ermənilərin maraqlarını qurban veriblərmiş (?!)

Əslində fakt budur ki, Minsk qrupu uzun illər münaqişənin həll olunması yönündəki fəaliyyətində sırf erməni mövqeyi nümayiş etdiriblər və bu gün post-münaqişə dövründə Aİ-nin gündəmə çıxmasından sonra Rusiyanın diplomatik idarəsinin rəhbəri "ermənilərinin maraqlarının qurban verilməsindən" dəm vurur (?!). Maraqlıdır, bəs son 28 ildə Azərbaycan xalqının maraqları haraya yazılmalıydı?!

Hazırda Rusiya RSK "soldatlarının" ayaqlarına geyindikləri "sapoqlara" güvənir, amma bu gün Ukraynadakı proseslər həmin "sapoqlu soldatların" heç də təsiretmə müxanizmi olmadığını sübuta yetirir.

### İki seçim var!

Və beləliklə, 19 apreldə Moskvada Rusiya və Ermənistan rəhbərlərinin görüşləri gözlənilir və ortada Moskvanın yanaşmalar etməsi üçün bir neçə variantları mövcuddur.

1.Konstruktivlik xətti - təşəbbüsü bərpa edərək real işlərə başlamaq və Aİ-yə regional imkanların kimdə olduğunu sübut etmək. Yeri gəlmişkən, Lavrov Brüssel görüşü haqqında danışarkən orada Moskvanın rolu barədə fikrin səsləndirilməməsini iddia etməsi yanlış düşüncə tərzidir. Yəni Aİ Şurasının prezidenti Şarl Mişel iki dəfə üçtərəfli bəyanata toxunub...

Beləliklə, nəqliyyat dəhlizinin başlanğıcı qoyula bilər və bunu hətta aprel ayının sonlarına qədər realizə etmək mümkündür, ardınca isə sülh danışıqlarına başlamaq. Bunlarla paralel olaraq RSK-nın müvəqqəti yerləşdikləri ərazilərdəki gərginliklərin azaldılması üçün delimitasiya proseslərinə başlamaq və onu təmin etmək. Bu da imkan verəcək ki, Rusiya bir sıra məsələlərdə və xüsusilə Qərb qarşısında öz konstruktivliyini nümayiş etdirsin.

2.Konfrontasiya xətti - Ermənistana hansısa silahların verilməsini vəd etmək, hətta qısa zamanda silahları göndərmək, Paşinyanın hökumətinə dəstək göstərmək, paralel olaraq Ermənistanın Rusiyayönlü müxalifətinə, həmçinin Qarabağdakı hərbi cinayətkarlara dəstək vədlərini vermək.

Məhz belə davranışda Rusiya ilk növbədə (!) uğursuzluqlarla qarşılaşa bilər. Daha dəqiq desək, belə olan vəziyyətdə onun qarşısında müttəfiqlikləri olan Azərbaycan və Türkiyə regional gücləri dayanacaq. Kreml vasitəçilik missiyasını tamamilə itirəcək. Nəticədə biz aprelin 19-da məhz bu iki yanaşmadan, qərardan birinin şahidi olacağıq. Yəni müəyyən edə biləcəyik ki, Rusiyanın hərbi-siyasi təhbərliyi bundan sonra hansı xətti tutacaq. Gözləyək...

***Rövşən RƏSULOV***



# Koçaryan kimilər üçün "əla" məqam..?

...ermənilərin "erməni seli" kimi təqdim etdikləri "axar"ın qabaqda gətirdiyi çör-çöpün davamı da, deyəsən, elə çör-çöp olacaq

**Bu dəqiqə, Ermənistanda aləm bir-birinə qarışıb. (...bizlərdə adətən belə yerdə "it yiyəsini tanımır" deyirlər. Amma burada məsələ bir az fərqlidir, yəni itlə yiyəsi, bunların hansının günahkar olmasl məsələsində tərəddüdsüz keçinmək olmur-A.B.). Ermənistandakı vəziyyəti deyirdim axı, hazırda rus təmsilçisi Krılovun səzəndələri kimi ermənilərin hərəsi bir tərəfə çəkir...**

Budur, Ermənistanın lazım olmayan yerlərə burnununa görə, işindən qovulan keçmiş ombudsmanı Arman Tatoyan Ermənistan və artsaxın ziyanına hərəkət edən bütün erməni səlahiyyətlilərinin məsuliyyətə cəlb edilməsini tələb edir. Hökumət başçısından tutmuş onun ətrafındakı kiçik məmurlara qədər...hamısını.

Tatoyana görə onlar "vətən xainləridirlər". Çünki onlar... ərazi səlahiyyətlərini Azərbaycana verilməsi hesabına ermənilərin hüquqlarını pozublar. Armana görə, Ermənistan "dünya demokratiyasının beşiyi" olmasına baxmayaraq, Avropa İttifaqı Şurası bu "beşiyə qarşı haqsızlıq" edib. Amma Avropa bilməlidir ki, bu "qeyri-qanunidir" və heç bir "hüquqi qüvvəyə" malik ola bilməz... Təbii ki, təzibolunmaz faktdır: ermənilər hər şeydə ancaq özlərini haqlı görürlər.

Bəh-bəh-bəh...budur, meydana Eduard Şarmazanov gəlir. Özü də ...necə? Deyir ölərik, amma verməri. Diqqət yetirirsiniz, ölərəm demir, ölərik deyir. "Vətənpərvər" olanda da bax, beləsindən olasan. Serjikin (Sarkisyanın) məktəbindən keçdiyi o dəqiqə sezilir. Deməli, bu dəfə Şarmazanov "artsax parlamenti" fraksiyasının bütün deputatlarının (?) Ermənistan Respublikasının hazırkı hökumətinin anti-dövlət siyasətinə etiraz ifadə etmələrini istəyir. Sonradan bunun nə ilə sonunlacağını Eduarddan soruşan gərək,..görən qanırmı?

...Belə görünür ki, ermənilərin "erməni seli" kimi təqdim etdikləri "axar"ın qabaqda gətirdiyi çör-çöpün davamı da deyəsən elə çör-çöp olacaq. Cünki özünü növbəti olaraq meydana yetirənin Robertin (Koçaryanın) "sırığlısından" çıxanlardan olduğu o dəqiqə bəlli olur. Belə ki, özünü yetirər-yetirməz "tezliklə başlayacağıq" deyib "xox" gəlməsindən onun "Hayastan" blokundan olduğu açıq sezilir. Deməli, bu dəfə "Hayastan"ın qabağa itələdiyi deputat Armenuhi Kyuregyanın "xox"u kimə gəldiyi hələ ki, bəlli deyil.

"...başlayacağımız.., bir neçə günün məsələsidir. Vəzifəmiz ölkəni xilas etməkdir, qarşımızda dilemma var: ya dövlətçiliyi qoruyub saxlayacağıq, ya da onu itirəcəyik. Biz dövlətçilik uğrunda mübarizə aparmalıyıq. Bu, dövlətçiliyi şərtləndirir. Ermənistan-artsax-Diaspor üçlüyü, minus bir konsensus yaratmaq lazımdır - minus Paşinyan və onun komandası. Biz dövlətçilik haqqında düşünən bütün digər qüvvələrlə bir yerdə olacağıq" deyən erməni qadın ilk növbədə hakimiyyət dəyişikliyinə nail olacaqlarına ümid edir.

Hə, indi "xox"un kimə gəldiyi bəlli oldu...

Təbii ki, "dünya demokratiyasının beşiyi" olan Ermənistanda bu, yəni hakimiyyət uğrunda "cəngə" qalxmaq birinci hal kimi qəbul edilməməlidir. Belə ki, bununla bağlı xeyli nümunə də göstərmək olar, amma...

Yəqin o vaxt Ermənistanda lider olmaq arzusu gözündə qalan Robert Koçaryan, indiki məqmdan ətrafındakıların köməyi ilə yararlanmaq istəyəcək. Deyim ki, bu gün Ermənistanda itin yiyəsini tanımadığı barədə yuxarıda xəbərdarlıq etmişdim...ona görə də, Koçaryan kimilər üçün əla məqmdır...

***Ağasəf Babayev***

# Qalibiyyətin rəmzi ŞUŞA

## SƏFƏR TƏƏSSÜRATI

## Kütləvi İnformasiya Vasitələrinin nümayəndələri Şuşada aparılan yenidənqurma, bərpa və tikinti işləri ilə tanış olublar



Mövcud faktara və reallıqlara istinadən demək olar ki, Cənubi Qafqazın qədim diyarı, nadir gözəlliklər məskəni, xalqımızın maddi və mədəni irsini özündə əks etdirən Şuşa şəhəri haqqında qalaq-qalaq kitablar yazılıb, şeirlər qoşulub, nəğmələr səsləndirilib. Təbii ki, bundan sonra da ənənə davam etdiriləcək. Şəhərin qonağı olan hər bir kəs buradan ayrılmaq istəmir. Şəhərin təmiz havası, füsunkar təbiəti, göz oxşayan gözəllikləri insanı özünə cəlb edir, uzaqlaşmağa qoymur. Ona görə də, Şuşanı hər bir azərbaycanlı özünün sevgi qisməti, ruhunun məbədi hesab edir. Şuşa həm də, tarixi qədim olan, xanlıqların, daha sonra dövlətçiliyimizin paytaxtı olmuş şəhərdir. Bu baxımdan Şuşa müasirliklə qədimliyi özündə birləşdirən şəhərdir. Hələ 1970-ci ildə Şuşada aparılan arxeoloji qazıntılar zamanı şəhərdə paleolit dövrünə aid daş alətlər aşkar olunub. Tarixi mənbələrə istinadən qeyd olunur ki, eramızın II əsrində yaşamış qədim Roma tarixçisi Gaius Cornelius Tacitus Qafqaz ərazisində dondar türk tayfasına məxsus Sosu (yəni Şuşa) şəhərinin olması barədə geniş və ətraflı məlumat vermişdir. Tarixçi qeyd etmişdir ki, gözəl , füsunkar təbiətə malik olan şəhər hər cəhətdə dünyada bənzəri olamyan şəhərdir. İqtisadi, siyasi, mədəniyyət mərkəzi kimi yaradılan Şuşa Midiya dövlətinin, Qafqaz Albaniyasının, Qarabağ xanlığının paytaxtı olub. İndi isə Türk dünyasının mədniyyət paytaxtı elan edilib. İşğallar zamanı şəhər dəfələrlə dağıdılıb, viran edilib. Yalnız Qarabağ xanı Pənahəli xanın dövründə şəhər dinclik tapa bilib. 1750-ci ildə, Pənahəli xan Şuşa kəndinin yaxınlığında şəhəri abadlaşdırılaraq yenidən qurub. Uzun illər Şuşa adı ilə yanaşı, şəhəri qurucunun şərəfinə Pənahabad adlandırılıb. Ağrılı, acılı günlər Şuşa şəhərinin başının üstünü 1992-ci il mayında yenidən aldı. Erməni-rus hərbi birləşmələri Azərbaycanda hakimiyyətsizlikdən istifadə edərək, tarixi şəhəri işğal edib, viran qoydular.

### 30 il yağı düşmən tapdağı altında olan Şuşa azadlıqda

Yağı düşmən 30 il ərzində digər ərazilərimiz kimi Şuşa şəhərinidə viran qoymuşdur. Mədəniyyət ocaqlarını, tarixi abidələri, qədim tikililəri dağıdan erməni qəsbkarları 476-cı ildə Romaya soxulub, bütün mədəniyyət nümunələrini, abidələri dağıdan ostokotlardan fərqlənmədiklərini nümayiş etdirmişlər. Bu qəddarlığa dünya birliyi, demokratiyadan, insan azadlıqlarından danışan beynəlxalq təşkilatlar, aparıcı dövlətlərdə susdu. Ancaq haqsızlıq, ədalətsizlik uzun çəkmədi. Azərbaycan Ordusu Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Qarabağımızı, o cümlədən qədim diyarımız, dövlətçilik tariximizin mərkəzi Şuşamızı qəsbkardan azad etdi. Bu gün Şuşa özünün intibah dövrünü yaşayır. Hər yerdə geniş qruculuq, abadlıq işləri aparılır. Hər bir yaşayış evlərində, küçə və meydanlarda millətimizin nəfəsi hiss olunur. 2020-ci ilin mayında Prezident İlham Əliyev Şuşa şəhərini Azərbaycanın mədəniyyət paytaxtı elan etdi. Azərbaycan Prezidenti İlham Əliyevin Şuşaya səfəri zamanı böyük şairimiz Molla Pənah Vaqifin büstü və muzey-məqbərə kompleksi, Bülbülün ev-muzeyinin və Üzeyir bəy Hacıbəylinin heykəlinin açılışları olub. Cıdır düzündə "Xarıbülbül" müsiqi festivalı keçirilib, Vaqifin möhtəşəm məqbərəsi önündə Vaqif Poeziya Günləri təşkil olunub. Həmçinin "Şüşa" yarımstansiyasının açılışı olub, "Xarıbülbül" və "Qarabağ" hotelləri istifadəyə verilib. Eyni zamnda yeni məscidin, 1 saylı ümumtəhsil məktəbinin təməli qoyulub. Bir sözlə, Ali Baş Komandan İlham Əliyevin dediyi "Biz qayıtmışıq, biz səni dirçəldəcəyik Şuşa" tarixi fikri reallaşmaqdadır.

Bu gün şəhərin əsl tarixi simasının bərpası yönündə nəhəng layihələr reallaşdırılır. Qısa müddətdə Şuşanın baş planı hazırlanıb. Müzəffər Ali Baş Komandan dəfələrlə Şuşaya səfərlər edib. Onun hər səfəri böyük layihələrin icrası, açılışlar, təməlqoyma mərasimləri keçirilir, tunellər, avtomobil və dəmir yolları, elektrik yarımstansiyaları istifadəyə verilir.






2021-ci il noyabrın 7-də Prezident İlham Əliyev və Birinci xanım Mehriban Əliyeva Şuşa şəhərinə səfər edərkən "Zəfər yolu"nun açılışında iştirak ediblər, Daşaltı məscidinin, Şuşa Radio-Televiziya Yayım Stansiyasının, Şuşa Rayon Mərkəzi Xəstəxanasının təməlini qoyublar. Aşağı Gövhər ağa məscidində, Mehmandarovların malikanə kompleksində aparılan işlərlə tanış olunub. İyunun 15-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevlə dost, qardaş Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsi imzalanıb. Azərbaycan və Türkiyə Prezidentləri Şuşada "Xan qızı" bulağında olublar.

Azərbaycan Prezidenti İlham Əliyev və Birinci xanım Mehriban Əliyeva 2021- ci il avqustun 30-da Şuşada keçirilən Vaqif Poeziya Günləri çərçivəsində Heydər Əliyev Fondu tərəfindən təşkil edilən "Qarabağ Azərbaycan mədəniyyətinin incisidir" və "Yenidən doğma diyarda. Qarabağın sənət inciləri" sərgiləri ilə tanış olublar. Şuşada açılan sərgidə Böyükağa Mirzəzadə, Toğrul Nərimanbəyov, Maral Rəhmanzadə, Nadir Abdurrəhmanov, Mikayıl Abdullayev, Ucal Haqverdiyev, Müseyib Əmirov və Azərbaycanın digər görkəmli rəssamlarının əsərləri yer alıb. Burada Qarabağın mənzərələri, ədibləri, xalçası, atı, muğamı, Vətən müharibəsində qələbə mövzuları geniş əksini tapıb. Altmışdan çox əsərin nümayiş olunduğu sərgidə Xalq rəssamı Altay Hacıyevin "Məclisi-üns", Xalq rəssamı Səttar Bəhlulzadənin "Yuxarı Daşaltı", Əməkdar rəssam İnna Kostinanın "Qarabağın zənginliyi", Leyla Əliyevanın "Xarıbülbül" əsərləri, Faiq Hacıyevin "Qarabağ atı", Orxan Nəbizadənin "Qarabağ gözəli" kimi heykəltəraşlıq nümunələri və Heydər Əliyev Fondunun təşkilatçılığı ilə Azərbaycan Milli Xalça Muzeyinin təqdim etdiyi xovlu və xovsuz xalçalar, xalça məmulatları, milli tikmə və geyim dəstləri, bədii metal nümunələri nümayiş olunub.












## Şuşa Türk dünyasının paytaxtına çevrilir

Şuşada quruculuq, adadlıq, tikinti işləri davam etdirilir. Həyat elə gətirdi ki, tarixi Şuşa şəhərini ziyarət etmək, orada aparılan tikinti, abadlıq, quruculuq işləri ilə tanış olmaq mənə də nəsib oldu. Yazıldığı və deyildiyi kimi Şuşa füsunkar təbiətə, ezaskar gözəlliyə malikdir. Qalın meşələrlə, uca dağlarla əhatə olunan şəhər, həm də qalaların sipər olduğu şəhərdir. 30 il ərzində mənfur düşmən Şuşanı dağıtmağa, tikililərini məhv etməyə, gözəlliyinə xələl gətirməyə çalışsa da, elə Şuşanın özü yağı düşmənə müqavimət göstərib. 8 noyabr 2020-ci il də isə Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə ordumuz terrorçu erməni hərbi birləşmələrinin bəzilərini məhv etdi, digərləri isə qaçmaqla canlarını qurtardılar və Şuşa azadlığına qovuşdu. Artıq şəhərdə geniş, bərpa, quruculuq işləri həyata keçirilir. Azərbaycanın KİV nümayəndələrinin Şuşaya səfəri şəhərin mərkəzi meydanında Türk dünyası mədəniyyətinin tanınmış simaları Natəvanın, Bülbülün və Üzeyir Hacibəylinin güllələnmiş heykəllərini ziyarət etməklə başladı. Mənfur düşmənin 30 ilə yaxın müddət ərzində vəhşiliklə dağıtdığı digər maddi-mədəni abidələri, inzibati binalarında aparılan təmir-bərpa işləri ilə yaxından tanış olduq. Şəhərin mərkəzində tikilməkdə olan icra hakimiyyətinin binasıına, Yuxarı Gövhərağa məscidində aparılan bərpa, təmir işlərinə baxış oldu. Daha sonra KİV nümayəndələri yenicə təmirdən çıxan "Qarabağ" otelinə, Şuşa qalasına, Xurşidbanu Natəvanın adını daşıyan bağda ucaldılan görkəmli bəstəkar Üzeyir Hacıbəylinin heykəlinə, Xarı bulbul otel kompleksinə, "Azəristiliktəchizat" ASC-nin Şuşa istilik sistemləri sahəsinə, "Azərişıq" ASC-nin Şuşa elektrik şəbəkəsi rəqəmsal idarəetmə mərkəzinə, böyük şair, Qarabağ xanı Pənahəli xan Cavanşirin baş vəziri olmuş Molla Pənah Vaqifin muzey-məqbərə kompleksinə, Heydər Əliyev Fondu tərəfində təmir-bərpa işləri aparılan Mehmandarovların malikanə kompleksinə, Saatlı Məscid abidəsinə, Daşaltı kəndindəki 110/35/10 KV-luq Şuşa yarımstansiyasına, eləcə də tikintisinin əsası qoyulan yeni məscidin, 90 çarpayılıq xəstəxananın, uşaq futbol stadionunun, ümumtəhsil məktəbinin tikintisinin gedişinə baxıblar. Ümumi təəssürat yüksək olub. Əminlik yaranır ki, aparılan tikinti, bərpa və yenidənqurma işləri tezliklə başa çatacaq və şuşalılar nəhayət öz doğma yurdlarına qayıdacaqlar.

Deyə bilərəm ki, Şuşaya ilk səfərimiz bizim yaddaşımızda silinməz izlər buraxdı. İnanırıq ki, növbəti səfərimiz zamanı şuşalılardan evlərində, iş yerlərində müsahibələr alacaq, onlarla birlikdə şəhərin meydanında şənliklər quracaq, qala divarları önündə tonqallar qalayıb, bir daha dünyaya hayqıracağıq, "biz qayıtmışıq, biz evimizdəyik".

***İ.ƏLİYEV***

***Fotolar Murad Adiloğlu***









# O bilir ki, izdihamı videoya çəksə reklamçılardan milyonlarla pul götürəcək

**“Müasir nəsil bir qədər fərqli düşünən, yaşayan, sosiallaşmağı bacaran, lazım olan anda öz fikirlərinə və zövqünə uyğun hadisələr, tədbirlər, insanlarla görüş olduqda belə izdihamla yığışa bilirlər. Bu dünyanın hər yerində var. Vaxtilə Ledi Qaqanın və Maykl Cekson kimi məşhur simaların konsertində olan izdihamın Azərbaycanda da fərqli formatı vardı”. Bu sözləri SİA-ya açıqlamasında yazıçı kulturoloq, analitik ekspert Aydın Xan Əbilov deyib.**



Onun sözlərinə görə, vaxtilə Zeynəb Xanlarova stadionları, mədəniyyət evlərini insanlarla doldurardı: ”Eyni zamanda məsul bayramlarda da bu tipli izdihamlar olurdu. Hüseyn Həsənov kifayət qədər populyar bir bloggerdir. O həm də marketoloqdur. O bilir ki, bu izdihamı videoya çəksə reklamçılar onun hesabına milyonlarla pul ötürəcək. Bu onun üçün çox asandır, çünki maliyyə vəsaiti var”.

**Aydın Xan Əbilov sözlərinə belə davam edib:** ”Bu izdiham



əsasən də ata-anadan ”İphone” tələb edə bilməyən yeniyetmələrdən ibarət idi. Onlar üçün maraq sırf ”İphone”ni əldə etməkdir. Gənclər ora Hüseyni görməyə gəlməmişdilər. Çünki zatən sosial şəbəkə vasitəsilə görürlər.

İnsanlar xüsusilə post-pandemiyadan sonra olan belə kollektiv tədbirlər üçün də darıxıblar. Hər birimiz tənqid edə bilərik ki, ölkəyə nobel mükafatçısı və beynəlxalq ekspertlər gəlsə onların tədbirlərində belə izdiham olmur. Bu insanlara pul və ya hədiyyə qazandıracaq tədbir kimi təşkil olunur. Yer seçimi isə uğursuz idi. Belə tədbirlər açıq havada təşkil olunsa idi izdiham da olmazdı”.

**Deputat Fazil Mustafa isə məsələyə belə münasibət bildirib:** ”Mən azərbaycanlıları və cəmiyyətimizi tanıyıram. ”Park Bulvar”da tort, ya da krassovka verilsəydi, başqa bir təbəqə orada izdiham yaradacaqdı. Hələ bunlar bir az mütərəqqi təbəqədir ki, ”iPhone” istəyirlər. Qalanlar nə istəyəcəkdi?! Yəni bu sosial şəbəkədəkilər, qaragüruh yaradanlar onlardan ağıllıdır ki?!

Hamı düşüb ki, izdiham yaşandı və s. Hələ orada normal davranıldı. Ərzaq paylanılsaydı, görün nə olacaqdı. Bu cəmiyyəti müstəqillik dövründə irəli apara bilmədik, çünki normal, yaxşı təhsil verə bilmədik.



O uşaqlar haradasa universitetdə oxuyur, orta məkəb şagirdidirlər, onların normal təhsili yoxdur. Sadəcə özlərini təkmilləşdirmək, nələrsə öyrənmək üçün texnoloji vasitələr istəyirlər. Bu gün 5 yaşlı uşaq da məndən və sizdən daha yaxşı idarə edir ”iPhone”u. Müasir texnologiyanın ərsəyə gətirdiyi bir şeydir bu. Burada hansısa təhlükə niyə olsun?! Təhlükə cəhalətdədir, təhlükə bir sürü kimi hansısa yalançının dalınca gedənlərdədir. Siyasətdə də belədir. Çıxsın, bir dələduz desin ki, bunları vəd edəcəyəm, kimsə getməyəcək?! Hansı vicdanlı adamın dalınca bu qədər insan gedib axı?!”.

***Ayşən Vəli***

## Türkiyə ordusu İraqın şimalında 19 terrorçunu zərərsizləşdirib

Türkiyə Silahlı Qüvvələri İraqın şimalında başlatdığı ”Pəncə Kilid” antiterror əməliyyatı çərçivəsində 19 PKK terrorçusunu zərərsizləşdirib. SİA-nın məlumatına görə, bu barədə ölkənin Milli Müdafiə Nazirliyi bildirib. Qeyd olunub ki, əməliyyatlar zamanı Türkiyə ordusunun 4 əsgəri yüngül yaralanıb.



Xatırladaq ki, Türkiyə ordusu bu gün İraqın şimalındakı Metina, Zap və Avaşin-Basyan bölgələrində terrorçu hədəflərə qarşı qurudan və havadan ”Pəncə Kilid” əməliyyatına başlayıb. Əməliyyata milli müdafiə naziri Hulusi Akar rəhbərlik edib.

## İtaliyanın Baş naziri Mario Draqi koronavirusa yoluxub



İtaliyanın Baş naziri Mario Draqinin yeni növ koronavirus (COVID-19) testinin nəticəsinin müsbət çıxdığı açıqlanıb. Belə ki, testin nəticəsinin müsbət olmasına baxmayaraq, 74 yaşlı M.Draqidə hər hansı mənfi əlamətlərin olmadığı bildirilib.

Baş nazir M.Draqi aprelin 20-21-də Anqola və Konqoya nəzərdə tutulan səfərdə iştirak edə bilməyəcək.



## Gübrə idxalında ciddi azalma var

Cari ilin yanvar-mart aylarında 15,7 min ton gübrə idxal edilib. Dövlət Gömrük Komitəsi xəbər verir ki, idxal edilən düyünün dəyəri 11,2 milyon dollar olub.

Xatırladaq ki, ötən ilin yanvar-mart aylarında dəyəri 18,9 milyon dollar olmaqla 77,2 min ton gübrə idxal edilib.

# “Ermənistan sülhə məcbur edilməlidir”

**“Ermənistanın baş naziri Nikol Paşinyan Azərbaycanla sülh danışıqlarının tezliklə başlanmasının tərəfdarıdır. Eyni zamanda, o qısa müddət ərzində müqavilənin imzalanmasının vacibliyini vurğulayır. Paşinyanın fikirlərinin formalaşması Brüssel danışıqlarının nəticələrinə uyğundur”. Bunu SİA-ya açıqlamasında da politoloq İlyas Hüseynov deyib.**

Onun sözlərinə görə, müddət keçdikcə Brüssel gündəliyinin nə qədər uğurlu bir format olduğunun şahidi oluruq: ”Ermənistan parlamentində çıxışı zamanı Nikol Paşinyan sülh müqaviləsinin imzalanması ilə bağlı fikirlər bildirməsi Cənubi Qafqazda sülhün bərqərar olması baxımından da mühüm amil kimi görsənir. Lakin, burada bir sıra manеələr və əngəllər də görülməkdədir. Bu istiqamətdə, xüsusilə Azərbaycan ərazisində kompakt yaşayam ermənilər arasında bəzi müqavimətin getdiyini görürük. Eyni zamanda, Ermənistan müxalifəti də bu xüsusda böyük aktivlik nümayiş etdirir. Müxtəlif nümayişlərin keçirilməsi, etiraz mitinqlərinin təşkil olunması bunun bir göstəricidir. Digər mühüm məsələ Ermənistanın üzərinə götürdüyü öhdəliklərin yerinə yetirilməsi ilə bağlıdır. Ermənistan 10 noyabr Bəyanatından sonra keçən dövr ərzində bir sıra öhdəliklərdən boyun qaçırdığı halları müşahidə olunmuşdur. Buna görə də, məhz Ermənistanın sülhə məcbur edilməsi kənar geosiyasi aktorlar tərəfindən də həyata keçirilməlidir və Ermənistan rəhbərliyində sülh xarakteri daşıyan müsbət mesajlar daim müxtəlif təxribatlarla müşahidə olunur. hərbi siyasi zəmində baş verən təxribatlar ümumilikdə sülh gündəliyinə mənfi təsir göstərir. Bu xüsusda məhz atəşkəs rejiminin pozulması, müxtəlif qeyri-qanuni səfərlərin təşkili ”Laçın dəhlizi”ndən təyinatı üzrə istifadə etməmək və digər hallar Azərbaycan və Ermənistan arasında gərginliyin yaradılmasına xidmət edir”.

İ.Hüseynov onu da bildirdi ki, siyasi bəyanatlarla yanaşı praktiki addımların atılmasında da sinxronluq müşahidə olunmalıdır: ”Belə olacağı halda Ermənistanın siyasi elitasında hər hansısa səmimiyyətin olduğunu qeyd edə bilərik. Lakin indiki halda qeyri-səmimi çıxışlar və təxribat mahiyyəti daşıyan addımlarda ümumilikdə təhlükəsizlik sahəsinin yaranmasına mənfi təsir göstərir. Azərbaycan 10 noyabr bəyanatındakı maddələrin icrasında maraqlıdır. Bu xüsusda məhz 4-cü maddənin tam şəkildə icra olunması mühüm prioritet kimi görünür və nəqliyyat və kommunikasiya xətlərinin açılması ilə bağlı İranla imzalanan anlaşma memorandum da göstərdi ki, Azərbaycan öz addımlarında qətiyyətlidir, siyasi iradə nümayiş etdirir və digər bütün hədəflərə çatmaqda da israrlıdır. Buna görə də, bütün maddələrin icra olunması Ermənistanın sülhə məcbur edilməsi və yekun sülh müqaviləsinin imzalanması rəsmi Bakının diktəsi ilə həyata keçirilir. Nikol Paşinyanın müxtəlif xarakter daşıyan açıqlamaları əslində vaxt udmaq niyyəti daşıyır. Paşinyanın sülh mahiyyəti daşıyan çıxışlarının əsas səbəbi Dəmir yumruq əməliyyatıdır. Azərbaycanın qüdrətli ordusu, Ali Baş Komandanının siyasi iradəsi və xalqımızın qüdrəti sayəsində hazırda Cənubi Qafqazda sülhün yaradılması istiqamətində işlər həyata keçirilir və bu da onu göstərir ki, Azərbaycan məhz sülh şəraitində məsələlərin tənzimlənməsində hər zaman maraqlı olub”.

***Gülyana***



# Dünənimizdən gələcəyə ötürülən estafet

## Unutmayaq ki, unuduları̇q




**Bir əsrdən artıq milli kino sənəti tarixinə, peşəkar teatra sahib olan bir xalqın yaratdığı sənət irsi onun keçmişi, dünəni və bu günü ilə bağlıdır. Azərbaycan xalqının peşəkar sənətini yaradan və yaşadan böyük sənətkarlar məktəbi olmuşdur. Aktyor, rejissor, ssenarist və bəstəkar komponentlərindən gözəl filmlərimiz, tamaşalarımız ərsəyə gəlmişdir.**

Fəxrlə qeyd edək ki, Fransada keçirilmiş ilk kinoseansdan iki il sonra - 1898-ci il avqustun 2-də Bakı elmi-foto dərnəyinin katibi, naşir və fotoqraf Aleksandr Mişon özünün lentə aldığı "Bibiheybətdə neft fontanı yanğını", "Əlahəzrət Buxara əmirinin yolasalma mərasimi", "Qafqaz rəqsi" xronikal sənədli və "İlişdin" adlı bədii süjetlərini nümayiş etdirilməsi artıq sənət tariximizə yeni ştrixlər əlavə etdi. Bu, o demək idi ki, Azərbaycan milli kino sənəti öz bünövrəsin qoymuşdur. Həmin zamandan milli kino sənəti tariximizə bir-birindən maraqlı ssenariləri ilə diqqət çəkən filmlər daxil oldu. "Arşın mal alan", "Şərikli çörək", "Ad günü", "İstintaq", "Yaramaz" , "Ögey ana", "Uzaq sahillərdə", "Bizim Cəbiş müəllim", "Axırıncı aşırım", "Nəsimi", "Özgə vaxt", "Sarı gəlin", "Ovsunçu", "Buta", "Çölçü" və digərləri istehsal olundu. Bu filmlər də bir çoxu beynəlxalq və digər kinofestivalların mükafatlarına layiq görülüb.

Adlarını qeyd etdiyimiz və etmədiyimiz filmlərin yaradılmasında böyük əməyi olanlar oldu. Bu filmlərimiz ərsəyə gələnə qədər neçə-neçə ömürdən pay aldı. Gecəli-gündüzlü böyük, ustad sənətkarlar yorulmadan çalışdılar. Yağışda, qarda, dumanda-çiskində çəkilən filmlərin yaradıcı heyəti öz ömürlərinin içində neçə-neçə qəhrəman, igid insanların həyatını yaşadılar. Ömürlər ömürlərə calandı. Müdriklərdən biri gözəl demişdir: "Ən uzun həyat zəngin yaşanmış həyatdır. Ömrü vaxt ilə deyil, əməllərlə ölçmək lazımdır".

Azərbaycan kino sənəti ötən müddətdə əlamətdar hadisələrlə zəngin özünəməxsus inkişaf yolu keçərək, xalqımızın mədəni-mənəvi həyatında mühüm rol oynayıb. Azərbaycan kino sənətini yaşadan və onu zənginləşdirən filmlərimizin baş qəhrəmanlarının sənət yoluna nəzər saldıqda bu işıqlı yol aydın görünür. Sanki bir-birindən istedadlı, böyük sənətkarlar filmlərdə yaratdıqları obrazlari ilə isimləri qarşısına yaratdıqları qəhrəmanlarının adlarını həkk ediblər. Ələsgər Ələkbərov, Mehdi Məmmədov, Barat Şəkinskaya, Məmmədrza Şeyxzamanov, Hacıbaba Bağırov, Ələddin Abbasov, Leyla Bədirbəyli, Münəvvər Kərəntərli, Rasim Balayev, Nəsibə Zeynaloava, Səyavuş Aslan və adları sadalandıqca bitməyən sənət fədailəri. Sanki hər biri həm səs, həm görkəm, yaraşıq və gözəllik, həm də səhnə mədəniyyəti ilə Azərbaycan sənəti üçün doğulmuşdular. Daxilən gələn ikinci səs bu insanların xarakterik obrazlar qalereyası yaratmalarına imkan vermişdi. Bir daxili tələb, istək idi onları bu yola gətirən. Təmənnasız yalnız və yalnız sənət üçün əmək sərf etmək yaradıcılıq meyarları idi. İstənilən bir aktyorun sənət biblioqrafiyasına nəzər salsaq böyük bir sənət ömrü ilə tanış olarıq. Bu sənətkarlar heç vaxt özündən razı olub, filan obrazı mükəmməl yaratdım deməyiblər. Belə sənətkarlar xalqın qəlbində, sənət tarixində əbədi yuva qurublar.

### SƏNƏTDƏ YENİ İMZALAR, YENİ NƏFƏSLƏR

Əlbəttə ki, həyat dayanmır, hərəkətdə və inkişafdadır. Odur ki, belə sənətkarların davamçılarını yetişməsi labüddür. Sənətə yeni imzalar, yeni nəfəslər cığır açdı. Yeni simalar baş rolları canlandırdılar. Sənət taleyi üzünə gülən də oldu, gülməyən də. Böyük sənətkarlar nəslindən estafeti alanlar üzərinə məsuliyyət düşürdü. Əlbəttə ki, müasir dövrümüzdə çəkilən filmlərin bir qismi mükəmməl hesab oluna bilər, amma əksər filmlərimiz sənət tariximizdə çox sönük görünür. Böyük sənətkarlarımızın çəkildiyi filmlərlə yeni yaranan filmlərin aktyor ansanblı diqqəti cəlb edir. Jest və mimikalar, aydın nitq, yaraşıqlı qamət, obrazı bütün tərəfləri ilə ifadə etməyə qadir olan istedad və s. Bu və ya digər məqamlar mükəmməl bir obrazı ortaya qoymuş olur. Əlbəttə, bu gün də çəkilən filmlərdə istedadlı aktyorlara rast gəlirik. Amma etiraf etmək yerinə düşər ki, tamaşaçı tələbini ödəmək baxımından nadir hallarda böyük bir ansanbla təsadüf olunur. Azərbaycan kinosunda daha tamaşaçının gündəlik aforizminə çevriləcək ekran əsərlərə rast gəlinir desək yalnışlığa yol verə bilərik. Bəlkə də ona görə ki, istedadlı aktyorları görmür, yaxud da görmək istəmirik. Ömrünü yaşamış və ahıl rolları yarada biləcək aktyorlara sənətimizin ehtiyacı yoxdurmu? Şübhəsiz ki, var. Film həyatımızın əksidir, həyatı hadisələrin güzgüsüdür. Bu həyatda isə hər yaşda olan insanlar var və ekranlaşdırılaraq filmlərimizə gətirilirlər. Yaratdıqları obrazları ilə ürəkləri fəth edən Valeh Kərimov, Ayşad Məmmədov kimi kinoaktyorlarımız var ki, onların potensialından istifadə edilə bilər. Həm aktyor kimi, həm də bu sahənin bilicisi olaraq. Özünəməxsus təbiəti ilə seçilən böyük sənətkarlar diqqətdən kənarda qalmamalıdır. İstedadsız insanlar (elə bütün sahələrə şamil olunur) hər şeyin bilicisi, xüsusi talant kimi özlərini təqdim etməyə yol tapa bilirlər, Amma zəhmətkeş və istedadlı insanlar hər zaman öz hörmətlərin qoruyub saxlamağı bacarıblar və alicənablıqları, təvazökarlıqları ilə seçiliblər.

### ƏSL SƏNƏTKAR SÖZÜNƏ MƏNƏVİ EHTİYACIN YETİŞDİYİ MƏQAM

Mənəvi dəyərləri, əxlaqi, estetik gözəllikləri qorumaq üçün ayıq-sayıq olmalıyıq. Zövqlü tamaşaçının, minlərlə ziyalısı olan bu xalqın klassik sənət nümunələrinə böyük ehtiyacı var. Əlbəttə ki, gözəl filmləri yaradan aktyorların da özlərinə qarşı qayğı və diqqətə, mənəvi, maddi ehtiyacı var. Düzdür, Azərbaycan Prezident İlham Əliyev mədəniyyət və incəsənət xadimlərinə, kino sahəsində çalışanlara göstərdiyi diqqət və qayğı davamlıdır. Kino sahəsində çalışan sənəkarların yubiley tədbirlərinin keçirilməsi, onlara Prezident təqaüdünün verilməsi, mənzil şəraitinin yaxşılaşdırılması istiqamətində ardıcıl tədbirlər həyata keçirilir.

Amma onu da etiraf edək ki, əsrlər boyu qorunub-saxlanılan mədəni irsimiz, bu irsi yaradanlar lazımi bir şəkildə televiziya kanalları tərəfindən xalqa təqdim olunmur. Televiziya kanallarında daha çox istedadsız, sənətdə xidməti olmayanların təbliğatına üstünlük verilir. Hanı bizə ziyalı sözü deyə biləcək sənət xadimləri? O sözə ehtiyacımız var. Televiziya kanallarında, mətbuatda cəmiyyət arasında tanınmamış istedadı olmayan "sənət ustalarına" xüsusi yer verilir. Bütün bu və ya digər hallar Azərbaycan millimənəvi dəyərlərinə, kino sənətinə böyük zərbə endirir və yetişən nəslin şəxsiyyət, ziyalı kimi formalaşmasında öz izini salır.

Azərbaycanda dövlət xalqın millimənəvi dəyərlərinin, milli şüurunun, milli düşüncəsinin qorunması istiqamətində böyük işlər görür. Milli şüuru qorumaq, onu saflaşdırmaq hər kəsin məsuliyyətidir. Ekranlarımızda kino sənətində sözü, əməyi olan, bu sahənin təcrübəli insanlarına ehtiyac var və onlarla gözəl söhbətlər, gecələr təşkil olunmalıdır. Demokratik ölkədə azad söz, azad fikir formalaşıb. Amma bütün hərəkətlər müəyyən ölçü həddində olmalı, ən əsası isə milli-mənəvi dəyərlər qorunub-saxlanılmalıdır.

***Nəzakət ƏLƏDDİNQIZI***

# "Saçı-saqqalı uzundur deyə heç kim şagirdin üzərinə gedə bilməz"

*EKSPERT AÇIQLADI*

"Şagirdlərin vahid geyim forması, eyni zamanda onların ümumi görünüşü vacib məsələlərdəndir. Təbii ki, hər bir şəxsin öz seçim azadlığı var. Lakin təhsildən söhbət gedirsə ümumi davranış qaydalarında mütləq bu amillər nəzərə alınmalıdır". Bu sözləri SİA-ya açıqlamasında təhsil məsələləri üzrə ekspert Elçin Əfəndi deyib. Onun sözlərinə görə, bəzi şagirdlərin üzünün həddindən çox saqqallı və dəhşət uzunsaçlı



məktəbə getməsi direktorlardan tərəfindən qəbul olunmur: "İlk növbədə şagirdlərin yaşını nəzərə almaq lazımdır. Saçsaqqal uzadan əsasən yuxarı sinif şagirdləri olur və bu onlarda olan keçid dövründən irəli gəlir. Bu məqamda məktəb rəhbərliyi onları nəzərə almalı, şagirdin özü və ya valideyni ilə söhbət etməlidir".

Elçin Əfəndi sözlərinə belə davam edib: "Amma hər bir halda hər kəsin öz şəxsi seçim azadlığı var. Buna da hər bir məktəb rəhbərliyi hörmətlə yanaşmalıdır. Saçı-saqqalı uzundur deyə heç kim şagirdin üzərinə gedə bilməz. Əgər şagird davranış qaydalarını pozursa, dərsin gedişatına maneə olursa və dərs oxumursa bu halda biz onun üzərinə nisbətən gedə bilərik. Digər məsələlər isə təhsildən kənardır".

***Ayşən Vəli***

# "Minsk Qrupu heç vaxt obyektiv mövqe sergiləməyib"

"ATƏT-in Minsk Qrupu lap əvvəldən yanlış yanaşma ilə fəaliyyətə başlayıb. 1992-ci ildə ATƏT-in Minsk Qrupunun yaradılmasının əsas məqsədi Azərbaycan-Ermənistan münaqişəsinin dinc yolla həll edilməsi idi. ATƏT-in Minsk Qrupu yaradıldıqdan sonra da Ermənistan Azərbaycan torpaqlarını intensiv şəkildə işğal etməyə davam edirdi". Bu sözləri SİA-ya açıqlamasında deputat Elşad Mirbəşiroğlu deyib.

Onun sözlərinə görə, lap başlanğıcdan ATƏT-in Minsk Qrupunun təsir imkanlarına malik olmadığını, münaqişənin dinc vasitələrlə tənzimlənməsi istiqamətində səmərəli fəaliyyət göstərə bilməyəcəyini nümayiş etdirdi: "Digər bir məqam isə ondan ibarətdir ki, ATƏT-in Minsk Qrupu münaqişə vəziyyəti ilə bağlı heç vaxt obyektiv mövqe sərgiləməyib. Bu amilin özü də onun vasitəçiliyinin səmərəsizliyini şərtləndirdi. Çünki vasitəçi bu və ya digər münaqişənin həll edərkən mütləq şəkildə onun baş verməsi səbəbini özü üçün müəyyənləşdirməli və bununla bağlı aydın mövqe sərgiləməlidir. Əgər, münaqişənin baş verməsi səbəbi haqqında aydın təsəvvürlər sərgiləmirsə, bu zaman təbii ki, həmin münaqişənin tənzimlənməsi üçün də təsirli alətlər təfbiq edə bilməzdi. Yəni Ermənistan Azərbaycana qarşı əsassız ərazi iddiaları irəli sürürdü, Azərbaycan torpaqlarını işğal edirdi. Münaqişəni tənzimləyən zaman da məhz bu faktlardan istifadə edərək addımlar atmaq lazım idi. Lakin ATƏT-in Minsk Qrupu heç vaxt Ermənistanın işğalçı dövlət olduğunu etiraf etmədi. Bu baxımdan da bu səmərəli fəaliyyət göstərə bilməzdi. ATƏT-in Minsk Qrupunun həmsədrləri həm Azərbaycana, həm Ermənistana çoxsaylı səfərlər etdilər.

2022-ci ilin birinci rübün yekunlarına dair keçirilən müşavirədə cənab Prezident də qeyd etdi ki, ATƏT-in Minsk Qrupunun 28 illik fəaliyyəti heç bir nəticə vermədi. Azərbaycan bu münaqişəni öz gücü hesabına həll etdi. Torpaqlarımızı işğaldan azad etdi. ATƏT-in Minsk Qrupunun mandatı faktiki olaraq fəaliyyətsizdir. Lakin de-yure hüquqi olaraq ATƏT-in Minsk Qrupunun mandatı qalmaqdadır. Hesab edirəm ki, Azərbaycan ilə Ermənistan arasında sülh sazişi imzalandıqdan sonra ATƏT-in Minsk Qrupunun mandatı hüquqi olaraq da qüvvədən düşəcək".

***Arzu Qurbanzadə***

# Ermənistanın son şansı

## *Yaxud Paşinyana asi olan "Qarabağ klanı"nın məqsədi nədir?*

**Brüssel görüşündən sonra Ermənistanda siyasi vəziyyət kifayət qədər gərginləşib. Xüsusən də Azərbaycanın ayrılmaz ərazisi sayılan Qarabağı 30 ilə yaxın işğal altında saxlayan Ermənistanın keçmiş rəhbərliyi daha canfəşan görünür. Başı məhkəmələrə qarışan Koçaryandan fərqli olaraq Sarkisyan artıq meydanlarda görünməyə başlayıb. Paşinyanın atdığı addımları müzakirə, səhvlərini ittiham edir. Bəzən indiki baş nazirə Azərbaycanla danışıqlarda nələri demək, hansı məqamlardan yayınmağı öyrətməyə çalışır. Amma indiyədək etdikləri müqabilində cəmiyyət hələ də ondan üz çevirir, Paşinyan haqqında dediklərinə isə əhəmiyyət vermir.**



Paşinyanın və xarici işlər naziri Ararat Mirzoyanın çıxışlarında Qarabağın ərazi məsələsi yox, hüquq məsələsi olduğunu deməsi parlamentdə çaxnaşmaya səbəb olub.





Onları satqınçılıqda ittiham edən bir qrup müxalifətçi deputat parlamentdə hakim partiyanın yalanlarına qulaq asmaqdansa Qarabağa səfər etmək və orada onları anlayacaq birisi ilə fikir mübadiləsi aparmaq həvəsinə düşüblər və...

Əsl mərəkə də bundan sonra başlayıb. Müxalifətçilərin Qarabağa yürüşünü öncə erməni hərbçiləri alıblar. Ermənilərin Aravusadlandırdıqları kəndin yaxınlığında deputat qrupu ilə söhbətlər aparılıb. Amma onlar bir az da irəli gediblər. Bu dəfə isə Rusiya sülhməramlı qüvvələrinin əsgərləri onların qarşısına çıxıb və ikinci "sarı vərəqə"ni də ruslardan alıblar. Erməni əsgərlərə irad bildirməyən deputatlar düşüblər sülhməramlıların üstünə. Bu qalmaqalın əks-sədası başı Ukrayna ilə müharibəyə qarışmış Rusiyadan gəlib. Bu azmış kimi müxalif deputatların yadına ATƏT-in Minsk qrupunun həmsədr ölkələri ABŞ və Fransa düşüb. Hər iki ölkənin rəsmi dairələri də "hay"ların səsinə hay veriblər. Amma...

Əmması da budur ki, Ermənistan-Azərbaycan münaqişəsində vasitəçi olmaq kimi vacib bir tapşırığı həll etməyi öhdəsinə götürmüş dünyanın 3 ən rol iri dövləti bir cılız Ermənistanın əlində qaldılar. 28 il İrəvanın şıltaqlığına əl çaldılar. Anlamadılar ki, bu ikibaşlı oyunlar onların nüfuzlarını aşağı salır. Bu gün Azərbaycan həm BMT-nin 4 qətnaməsinə, həm də üç həmsədr dövlətin 28 illik "turist diplomatiyası"na rəğmən Qarabağ problemini təkbaşına birdəfəlik həll etdi. Dağlıq Qarabağla birgə ATƏT-in Minsk qrupunun da mövcudluğuna son qoyuldu. Hər iki həmsədr ölkə - ABŞ və Fransa həmsədrlik missiyasını artıq davam etdirmək gücündə deyillər. Çünki bir tərəfdən Ukraynada baş verənlərə rəğmən Rusiya ilə Cənubi Qafqazda birgə fəaliyyər göstərmək şansı qaçırılıb. Dünyanın bir regionunda düşmən, digər bir ucunda dost olmaq sadəcə, mümkün deyil. Digər bir tərəfdən, həmsədrlərin həll etməli olduqları Qarabağ problemi artıq yoxdur.

Qayıdaq erməni deputatların Xankəndi səfərinin əngəllənməsinə. Bu hadisədən sonra Rusiya sülhməramlıları hədəfə alınıb. Dağlıq Qarabağdakı Rusiya sülhməramlıları növbəti dəfə tənqid atəşinə tutulub. Həm Xarici İşlər Nazirliyi, həm də Ermənistanın baş naziri Nikol Paşinyan bir qrup müxalifət deputatının Xankəndini İrəvanla birləşdirən Laçın dəhlizindən keçməsinə icazə verilməməsindən narazılığını bildirib. Rusiyanın Dağlıq Qarabağdakı sülhməramlı missiyası yenidən qalmaqalın mərkəzində olub. İndiyədək Ermənistan vətəndaşları sülhməramlıların nəzarət etdikləri əraziyə məhdudiyyətsiz daxil ola bilirdilər. Müxalifət deputatları qrupu bu qaydadan bəlkə də ilk ciddi istisna oldu.

Hakim "Vətəndaş Müqaviləsi" fraksiyasının deputatları (rəhbəri baş nazir Nikol Paşinyandır) müxalifətçiləri kəskin tənqid edərək, onların bu hərəkətini rəsmi İrəvanın regionda sülh bərqərar etmək səylərini puça çıxarmaq cəhdi adlandırıblar. "Bu cür hərəkətlər müharibənin qızışdırılmasına yönəlib", - deyə "Vətəndaş Müqaviləsi" fraksiyasının üzvü Qurgen Arsenyan müxalifətçilər görüş zalını tərk etdikdən dərhal sonra bildirib. "Burada belə bir fikir səsləndirildi ki, onlar Qarabağa erməni vətəndaşlarını qorumaq üçün gedirlər. Mən bunun əksini təsdiq edirəm: onlar indi Qarabağa gedirlər, həm orada yaşayan erməniləri, həm də Ermənistan Respublikasının vətəndaşlarını təhlükə altına alırlar. Bunu nəzərə alın".

Laçın dəhlizində baş verənlərlə bağlı "Ermənistan" fraksiyasından olan deputat Aqnes Xamoyan məlumat verib. "Qarabağın Aqavno kəndi yaxınlığındakı Rusiya nəzarət-buraxılış məntəqəsinə çatmazdan əvvəl bizim avtomobilimiz erməni sərhədçilərinin xidmətdə olduğu keçid məntəqəsində saxlanılıb. Pasportlarımız diqqətlə yoxlanıldığı və məlumatlar yazıldığı üçün nəzarətin gücləndiyini dərhal hiss etdik, bu heç vaxt baş verməyib", - deyə siyasətçi bildirib, lakin bunun səbəbini açıqlamayıb. Görünür, bilmirdilər. Sonra açıq şəkildə bildirdilər ki, Qarabağa girişimizə qadağa qoyulmasının səbəblərini hər iki tərəfdən, Ermənistan və Azərbaycan hakimiyyətlərindən soruşmalıyıq". Deputatın postda olan sülhməramlılara heç bir şəxsi iddiası yoxdur. Onun sözlərinə görə, onlar nəzakətli olublar və sadəcə olaraq rəhbərlərinin əmrlərini yerinə yetiriblər.

"Qarabağı təcrid etmək üçün konspirativ sövdələşmənin və sonradan ermənilərin çıxarılmasının daha bir faktı üzə çıxdı. Maraqlıdır ki, Azərbaycan hakimiyyəti ilə indiki Ermənistan hakimiyyətinin bizim səfərimizə reaksiyası eyni və bir-birini tamamlayır", - deyə müxalifət nümayəndə heyətinin üzvlərindən biri İşxan Saqatelyan bildirib.

Bu arada Ermənistan Xarici İşlər Nazirliyi və Nikol Paşinyan özü gözlənilmədən siyasi opponentlərinin müdafiəsinə qalxmaq qərarına gəlib və sülhməramlıların hərəkətlərini tənqid edib. "Ermənistan Respublikasının Xarici İşlər Nazirliyi Rusiyanın Dağlıq Qarabağdakı sülhməramlı kontingentinin hərbi qulluqçularının Ermənistan Milli Assambleyasının bir qrup deputatının Dağlıq Qarabağa daxil olmasına imkan verməməsindən narahatdır". Ermənistan Xarici İşlər Nazirliyinin bəyanatında deyilir ki, Dağlıq Qarabağın Ermənistanla Laçın dəhlizi vasitəsilə birləşdirilməsi. Bəyanatın bütün tərəfləri onun hərfinə və ruhuna ciddi əməl etməli, həmçinin öhdəliklərini yerinə yetirməlidirlər".

Bir neçə saat sonra İrəvan Moskvadan sülhməramlıların qeyri-adi sərt davranışının səbəbləri ilə bağlı cavab alıb. "Rusiya hakimiyyəti erməni tərəfinə mümkün təxribatların qarşısını almaq üçün Ermənistan parlamentinin müxalifətçi deputatlarının Qarabağa buraxılmadığını izah edib", - xarici işlər naziri Ararat Mirzoyan parlamentdə hökumət saatı zamanı deyib.

Bu arada Azərbaycan parlamentinin üzvü Rasim Musabəyov xatırladıb ki, Bakıda Rusiya sülhməramlı kontingentinin (RMK) hərəkətləri artıq dəfələrlə narazılıq yaradıb. Lakin indi cənab Musabəyovun sözlərinə görə, Rusiya hərbçiləri ədalətli davranıblar. "Bakı RSQ ilə işgüzar əlaqələri saxlamağa və razılaşdırılmış qaydalara cavab verən bütün addımları düzgün qiymətləndirməyə hazırdır. Sadəcə olaraq, özünüzü ərazinin sahibi və ya ermənilərin müdafiəçisi kimi təqdim etməyə ehtiyac yoxdur və başa düşməlisiniz ki, Azərbaycan Respublikasının suveren ərazisində məhdud vaxt və məkanda sülhməramlı missiya həyata keçirilir". Deputat bildirib ki, separatizmi dəstəkləmək yolverilməzdir.

Bəli, nə qədər ki, Qərb sparatizmi dəstəkləyəcək heç bir münaqişə bitməyəcək. Bu, Qərbin ikili standartlarındandır.

**V.VƏLİYEV**



**Dünyaya Xan qızı kimi gələn, lakin həyatın keşməkeşlərinin natəvanına çevrilən, ömrünün bir hissəsini Xurşid, bir hissəsini isə Natəvan kimi yaşayıb-yaradan azərbaycanlı qadın haqqında danışmaq istəyirəm. Şuşanın gözəl təbiətini misralayıb sətirlərə köçürən, bəzən aşiq, bəzən təbiət vurğunu, bəzən kədər şairi, bəzən dövrana, haqsızlığa qarşı çıxan söz-sənət adamından bəhs etmək istəyirəm. Bu il ölkəmizin Prezidentinin sərəncamı ilə anadan olmasının 190 ili qeyd olunacaq Xurşidbanu Natəvandan danışmaq istəyirəm. Doğulduğu ata-baba yurdu- Şuşası 30 il işğal altında qalan, qəbri, məqbərəsi dağıdılan, sümükləri yağı düşmən tərəfindən oğurlanan, həmyerliləri doğmasından qoparılan, bütün tarixi, mədəniyyət abidələri məhv edilən bir şəhərin qızından- Natəvandan. Bir də azad olunan yurdunda bu gün ruhu azad dolaşan, məqbərəsi bərpa olunan Şuşa gözəlindən, poeziyası ömrünün akkordlarına çevrilən ilk azərbaycanlı şairədən danışmaq istəyirəm.**

### Sarayın tək incisi

Qarabağın sonuncu xanı Mehdiqulu xan tək övladına anası Xurşidbanunun adını vermişdi. Xan nəslinin sonuncu vərəsəsi Xurşidbanu tək övlad olduğu üçün sarayın tək incisi çağırılırdı. Yaxşı tərbiyə görən bu qız yaxşı da təhsil almışdı. Ərəb, fars dillərini mükəmməl öyrənməsi onun ədəbiyyatımızın klassiklərini oxumasına şərait yaratmışdı. Qasım bəy Zakir, Mirzə Camal Cavanşir Qarabaği, Mirzə Adıgözəl bəy Qarabaği, Əhməd bəy Cavanşir kimi qohumlarının ruhu şeir üstə köklənən bu qızın şair kimi formalaşmasında xüsusi əməkləri olmuşdu.

Şuşanın bənzərsiz təbiət gözəllikləri isə sən demə bu Şuşa gözəlinin ruhunu zamanla oxşayacaqdı. Bu oxşamalarla o, gözü önündəki gözəllikləri misralayıb gözəl sənət əsərləri meydana çıxaracaqdı. Belə də oldu. Şairənin təbiəti vəsf edən şeirlərinin leymotivini məhz Şuşanın ecazkar təbiəti təşkil edir. Xurşidbanu özü tək inci idi, özü kimi də ölməz, həmişəyaşar incilər yaratdı. Bu gün də dəyərli, oxunaqlı, oxuduqca insanı düşündürən incilər....

### Elin "Xan qızı"

Sarayın tək incisi məxsus olduğu elin dilində "Xan qızı" idi. Xan qızı olduğu həyatının bütün mərhələlərində xanlara layiq xüsusiyyətləri ilə meydana çıxırdı. Mənsub olduğu soyun, kökün, nəslin böyüklüyü onun xarakterində özünü büruzə verir, əməlləri bunu təsdiq edirdi. Xan qızına məxsus keyfiyyətləri onu xeyriyyəçilik kimi yüksək insani hisslə də birləşdirmiş, torpağına, elinə bağlı bu qadını şəxsiyyətə çevirmişdi. Xurşidbanu Natəvanın Şuşada "Məclisi üns" ədəbi məclisini təşkil etməsi, 1873-cü ildə Şuşaya su kəmərini çəkdirməsi (bu su kəməri indi də "Xan qızı bulağı" adı ilə məşhurdur), Araz çayından Mil düzünə su kəməri çəkməyə təşəbbüs etməsi onun xan nəslinə məxsusluğunun, eyni zamanda idarəetmə bacarığına malik qadın olduğunun göstəriciləri idi. Şairənin həyatına nəzər saldıqda onun həm gözəl şair, həm xeyriyyəçi, həm mehriban ana olması və bunların hər birini özünəməxsus şəkildə ifadə edə bilməsi onun 190 il də sonra eyni hörmət, dəyərlə anılmasını şərtləndirən amillərdir.

### Həyatın natəvanı

Bəli, Xurşidbanu dünyaya xan sarayında gəldi, xan qızı idi, əzizlənib tək inci kimi sevilirdi də. Bütün bunlar taleyin ona nəsib etdikləri idi. Lakin taleyin irəlidə daha nə payları var idi, onun heç ağlına belə gələ bilməzdi. Xurşidbanu bu taleni həyatının irəlidəki illərində yaşayacaqdı. Bu alın yazıları bir-birinin ardınca yaşandıqca onlar şairənin qələmindən süzülüb ömür kitabının səhifələrinə çevriləcəkdi. Və o, özünə yeni ad verəcəkdi-Natəvan. Mənası kimsəsiz, köməksiz, zəif anlamına gələn bu söz onun həyatının sonunadək hər addımında qarşısına çıxdığı üçün elə adının da sonrasına artıracağı təxəllüsə çevriləcəkdi.

Xurşidbanu Natəvan poeziyasına dalarkən o, hər misrasında vüsala yetməyən, sevdiyinə qovuşmayan bir qadın obrazı kimi canlanır gözlər önündə... Bir qədər Xan qızı hesab edib, hər istəyinə çatar deyə sandığımız qadının ömründən perik düşən sevdasından danışaq...

### Sən qeyrilər ilə üns tutdun, bilməm niyə yarını unutdun...

Bu, ayrı-ayrı misralarda Natəvanın ömür kitabının səhifələrinə çevrilib. Hər misra onun xoşbəxtliyə, sevməyə, sevilməyə can atmasından, hər dəfə də əlinin boşa çıxmasından danışır. Sanki məhəbbət Natəvan üçün bağçadakı tikanlı qızılgüldür. Hər əlini atıb qoparmaq istəyəndə əlinə batan tikanların arasından süzən qandır.



## 270 yaşlı Şuşamızın 190 yaşlı qızından söhbət açmaq istəyirəm...

Deyirlər poeziya o zaman təsiredici olur ki, o, içdən gələn hisslərlə yazılır. İçdən gələn hisslər isə düşünürəm ki, o zaman təsirli olur ki, orada əlçatmayan bir hiss olur. Məhz bu zaman oxunan əsər göz yaşartmaq, ürək sızlatmaq gücünə malik olur. Natəvanın misraları kimi:

Qəm yükün çəkməkdən, ey dil, bir dəm azad olmadım,  
Hərçi cəhd etdim, nə hasil, yetmədim canana mən.  
-deyən şair başqa bir qəzəlində:  
Mənə ki, guşeyi-çeşm ilə bir nahən baxdın,  
Tez öldürər məni bu mehnəti-nalən, getmə!  
-deyir.  
Nə oldu bülbülə kim, qıldı gülsitan tərkin?  
Unutdu güllərini, etdi aşiyan tərkin.  
-misraları ilə öz halını ifadə edir.  
Və yaxud da:  
Vüsalə yetməyibən zarü Natəvan qaldım,  
Edib fələk yenə həsrət o məhcəmalə məni.  
-deyir.

### Hicran edibdir könlümü bərbad, ağlaram...

Nicran Natəvanın könlünü bərbad etmişdi. O, gizli ağlayırdı, göz yaşlarını hamıdan saxlayırdı. Onun göz yaşları gəncliyinin ilk illərindən axırdı. Lakin çarizm Qarabağda xanlığın davam etdirilməsinə son qoyduğu kimi, Xurşidbanunun da həyatına müdaxilə edəndə, onu öz maraqları naminə seçdiyi adamla evlənməyə vadar edəndə ta dayanmadı. Evlənməyə məcbur oldu, dünyaya övladlarını da gətirdi. Lakin əri Xasay xan Usmiyev onun üzündə gülüş ola bilmədi. Şuşasından aralı qalan könlü yaralı quş tək qanadlandı, lakin uça bilmədi. Bu qəlb nisgillə doldu, nicran çəkdi. Bu isə həssas şair qəlbi üçün nə deməkdir, aydındır.

Yanar çün Natəvan xəstə, müdam ol atəşi-qəmdən,  
Səbur ol, eylə adət şiveyi-ustad, pərvanə!  
misraları şairənin taleyindən şikayəti deyildimi?..

### Düşmənimdir, bilməzəm kim, netmişəm dövranə mən

Birinci evliliyi uğursuz olan Natəvan Şuşaya qayıdır. İkinci dəfə rəiyyət içərisindən olan şuşalı bir nəfərlə ailə qurur ki, bu da bəyləri çox qəzəbləndirir. Bu səbəbdən ömrünün sonunadək töhmətləndirilir. İkinci evliliyində də övladları dünyaya gəlir. Lakin həyatın bir-birinin ardınca vurduğu sillələrdən özünü kimsəsiz, zəif hiss edir. Sanki həyat Xan qızından üz çevirmişdi. Bir anlıq xoşbəxtliyi ona çox görürdü. Bu aralar əziz övladını-oğlunu da itirən şairə dövrandan şikayət edir: nə eləmişəm, görəsən dövrana, bilmirəm ki... Övladının itkisi onu üzür, qəlbini sıxır, göz yaşlarını sel edir:

Yanar canım, oğul, daim sənin nari-fəraqında,  
Necə pərvanələr hər dəm yanar şəmin ayağında.  
deyən şairə  
Qalıbdır Natəvan nalan, gecə-gündüz olur giryan,  
Onun yox dərdinə dərman, neçin gəlməz, neçin gəlməz?  
misraları ilə ahu-zar edir.

### Bütün keyfiyyətləri ilə qəlblərdə yaşayan şairə

Həm böyük bir xanlığa məxsusluğu, həm həssas bir lirizmə malikliyi, həm gözəl xanımlığı, mehriban analığı, həm də xeyriyyəçiliyi ilə ədəbi tariximizin bir parçası, ilk azərbaycanlı şairə qadını olan Xurşidbanu Natəvan xalqımızın qəlbində özünə elə bir qala ucaltmışdır ki, 190 ildir, sevənləri həmin qalanın zirvəsində onu yaşadır, əzizləyirlər. Xurşidbanu Natəvanın 190 illiyinin qeyd edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamında deyildiyi kimi: Xurşidbanu Natəvan Azərbaycan ədəbiyyatı tarixində diqqətəlayiq yer tutan söz ustalarındandır. İncəsənətin ayrı-ayrı növlərinə dərindən bələd olan sənətkar Şərq poetik ənənələrinə sədaqətlə yazıb yaratmış, mənəvi saflığa çağıran və insana məhəbbət, həqiqətə inam hissi aşılayan, zərif lirizmə malik və parlaq bədii boyalarla zəngin bir irs qoyub getmişdir. Onun başçılıq etdiyi ədəbi məclis öz ətrafında dövrün qabaqcıl ziyalılarını toplamış və Qarabağ ədəbi mühitinin inkişafına güclü təsir göstərmişdir.

Bəlkə də bu sevgi onun heç də razı qalmadığı dünyasından yeganə təsəllisidir.

*Mətanət MƏMMƏDOVA*

## "Təmiz heykəl" layihəsi davamlı olacaq

**"Bu gün keçirdiyimiz layihə "Təmiz heykəl" layihəsidir. Bu layihədə bizim xalq rəssamları, gənc rəssamlar, bir çox mədəniyyət xadimləri iştirak edir". SİA xəbər verir ki, bu sözləri jurnalistlərə açıqlamasında Mədəniyyət Nazirliyinin muzey, sərgi və qaleriyalar şöbəsinin müdiri Nərgiz Abdullayeva bildirib.**



Onun sözlərinə görə, layihənin əsas məqsədi istər regionlarda, istərsə də Bakıda heykəllərin təmizlənməsi və insanların maarifləndirilməsindən ibarətdir: "Bu gün keçirilən tədbir sonuncu olmayacaq və mütəmadi olaraq davam etdiriləcək. Hazırda layihəyə Xurşudbanu Natavanın heykəlinin təmizlənməsi ilə başlanıldı. Təbii ki, bütün heykəllərin təmizlənməsini bir günə sığdırmaq mümkün deyil. Lakin bu gün içərisində bir çox şəxsiyyətlərimizin heykəllərinin təmizlənməsi nəzərdə tutulub".

*Səbinə Hüseynli*

# “Minsk qrupunun mövcudluğu heç Ermənistan üçün də əlverişli deyil”

**“Sonuncu Brüssel görüşünün nəticələrinə uyğun olaraq Azərbaycan və Ermənistan arasında sülh sazişin hazırlanması, habelə, sərhədlərin delimitasiya və demarkasiyası prosesi istiqamətində işləmək üçün Xarici İşlər Nazirliklərinə tapşırıqlar verilib. Məlumdur ki, Azərbaycan zəfərdən dərhal sonra artıq sülh təklif edir. İrəvandan da son günlər nəhayət praqmatik bəyanatlara şahid oluruq. Xüsusən, Baş nazir Paşinyan və hakim partiyadan olan deputatların Parlamentdə ifadə etdikləri mövqe yekun sülh üçün ümidverici mənzərə yaradır”. Bu sözləri SİA-ya açıqlamasında deputat Bəhruz Məhərrəmov deyib.**




Onun sözlərinə görə, belə bir şəraitdə ATƏT-in Minsk qrupunun nəinki yenidən bərpası ümumiyyətlə bu struktur barədə müzakirələr belə region üçün təhlükə əxz edir: ”Birincisi, ona görə ki Minsk qrupunun fəaliyyət hədəfi olan münaqişəni nizamlamaq vəzifəsinə artıq ehtiyac qalmayıb. Artıq münaqişə başa çatıb.

İkincisi, hazırda Minsk qrupu regionda hər hansı prosesi reallaşdıracaq nüfuza malik deyil. Çünki qrup 30 ilə yaxın bir dövrdə beynəlxalq hüquqa zidd formalaşmış sratus-kvonun qorunmasına xidmət edib. Qarşısına qoyulmuş məqsədlərə uyğun real nəticələrə malik olmayan bir qurum kimi bölgədə faktiki olaraq güvənilməyən və arzuedilməyən strukturdur”.

Deputat sözlərinə belə davam edib: ”Müharibə dövründə həmsədr dövlətlərin bəzilərinin tutduğu mövqe Minsk qrupunun qərəzsizliyini haqlı olaraq şübhə altına salıb. Ən nəhayət, ötən ilin əvvəlindəki səfərləri zamanı onlara təklif edilən mina xəritələrinin və kütləvi məzarlıqların koordinatlarının verilməsi, minaların təmizlənməsi kimi humanitar missiyalar istiqamətində həmsədrlər faktiki olaraq maraqsız göründülər. Onların niyyətindən belə çıxır ki, biz həmsədrlər işsiz qalmasın deyə başa çatmış bir münaqişəni yenidən alovlandırmalıyıq ki, Minsk qrupu həll etsin?

Biz münaqişəni cənab İlham Əliyevin rəhbərliyi ilə həll etmişik, sülh sazişini də inanıram ki, imzalamaq üzrəyik. Üstəgəl bu nəticələrin əldə olunmasında həmsədrlərdən yalnız Rusiya fəallıq göstərib, o da həmsədr olaraq yox, tərəfdaşımız olaraq. Hətta, bir müddət əvvəl rəsmi Moskva bəyan etmişdi ki, ABŞ və Fransa Rusiya ilə kontaktları Minsk Qrupu çərçivəsində dayandırıblar.

Digər tərəfdən Avropa İttifaqı Şurası Azərbaycan və Ermənistan arasında münasibətlərin nizamlanması üzrə missiyanı uğurla yerinə yetirməkdədir. ATƏT-in Minsk qrupunun 30 illik faydasız fəaliyyətindən fərqli olaraq Şarl Mişelin vasitəçiliyi ilə yaranan yeni formatda 4 ayda cəmi iki görüşdə artıq real nəticələr var.

Habelə, bu yaxınlarda ATƏT sədrinin Axərbaycana səfəri çərçivəsində Cənubi Qafqazda yeni reallığı qəbul etdiyini göstərməsi əslində Minsk qrupu üçün son idi. İndi belə bir şəraitdə fəaliyyətsiz, 30 il formal olaraq varlığını sürdürən bir qurumu dirçəltmək heç kimə fayda verməyəcək. Hətta, əgər əvvəlki dövrdə İrəvanın maraqlarına xidmət edirdisə, bu gün yeni reallıqda ATƏT-in Minsk qrupunun mövcudluğu heç Ermənistan üçün də əlverişli deyil”.

***Ayşən Vəli***






# İnsan alveri cinayətlərindən necə qorumaq olar?

**Hüquqi və Demokratik İslahatlar Mərkəzi İctimai Birliyinin Azərbaycan Respublikasının Qeyri-Hökümət təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin maliyyə dəstəyi ilə keçirdiyi ”İnsan alverinə qarşı mübarizədə vətəndaş həmrəyliyinin artırılması” layihəsi çərçivəsində növbəti tədbir Mingəçevir şəhərində keçirilib. Oktyabrın 16-da Hüquqi və Demokratik İslahatlar Mərkəzi Azərbaycan Respublikasının Qeyri-Hökümət təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin maliyə dəstəyi ilə həyata keçirdiy ”İnsan alverinə qarşı mübarizədə həmrəyliyin artırılması” layihəsi çərçivəsində Mingəçevir şəhəri ”Gənclər evi”ndə ”İnsan alverinə qarşı mübarizədə gənclərin rolunun artırılması” mövzusunda növbəti tədbir keçirilib.**

SİA xəbər verir ki, tədbirdə jurnalistlərin, sosioloqların və ictimai fəalların iştirak etdiyi maraqlı müzakirələr,diskusiya şəraitində keçən tədbiri HDİM sədri, layihənin rəhbəri İlham Əliyev açaraq layihənin məqsədi barədə danışıb. Layihə rəhbəri bildirib ki, dövlət insan hüquq və azadlıqları sahəsində ardıcıl tədbirlər görüb, qanunlar qəbul edib, islahatlar aparsa da bu sahədə ağrılı problemlər hələ də qalmaqdadır: ”İnsan hüquq və azadlıqları üçün qara ləkə olan insan alveri cinayətlərinin mövcudluğu ağrılı problemlərdən hesab olunur. Hazırki dövrdə bu sahədə dünyada münbit şəraitin yaranması cinayətkar qrupların diqqətini cəlb edib və bu da Azərbaycan ailə dəyərlərinə, ənənələrinə zidd olan insan alverinin daha da aktuallaşması ilə nəticələnib. Bu səbəbdən də təşkilatımız bu sahədə əlindən gələni etməyə çalışır ki, bu problemin həlinə öz töhfəmizi verə bilək”.

Daha sonra Mingəçevir şəhər icra hakimiyyətinin əməkdaşı Natiq Əlizadə çıxış etdi. O, bu istiqamətdə görülən işlərdən, həyata keçirilən layihələrdən danışıb və bildirib ki, bu kimi tədbirlərin təşkili bu problemin aradan qaldırılması üçün vacib olan addımlardandır. Natiq qeyd edib ki, xüsusən də uşaqların və yeniyetmələrin bu sahədə maarifləndirilməsi və məlumatlandırılması belə halların qarşısının alınmasında əsas vasitələrdən biridir.

Layihənin eksperti Qismət İsmayılov isə, problemin hədəf kateqoriyasına toxunub. Ekspert deyib ki, insan alverinin qurbanları əsasən yeniyetmə və gənclər olur, ona görə də onların bu haqda daha çox məlumat alması və maariflənməsi vacibdir. Eyni zamanda tədbirdə MİX-in sədr müavinləri Cəmilə Bayramlı, Qönçə Sadıqova, tMingəçevir unveristenin tələbələrindən Məhərrəm Əliyev, Aidə Heydərli, Elçin Bədəlov və digərləri çıxış etdilər. Tədbirdə həmçinin Mingəçevir Dövlət Dram teatrının dram aktyoru Amil Fərzəliyev, müəllimə İlahə Bayramova, gənc fəal Vüsal Əliyev və başqaları çıxış edib fikirlərini bildiriblər.

Mövzu ətrafında geniş müzakirələr aparılıb, dünya ölkələrinin bu sahədəki təcrübəsindən danışılıb və Azərbaycanda bu istiqamətdə həyata keçirilən tədbirlərin əhəmiyyəti qeyd olunub. Tədbirdə layihə mövzusunda hazırlanmış bukletlər paylanılıb.

***Elçin***



# Hər yeri göbələk kimi basan ”POZ QAZAN” LOTEREYALARI

*"Topaz", "Poz Qazan" və s. digər lotereyalar xalqı soymaqla məşğuldur*

Son aylarda ölkəmizin demək olar ki, hər yerində fəaliyyət göstərən ”Poz, qazan” ani lotereyasına olan maraq durmadan artmaqdadır. Hər gün avtobus dayanacaqlarında, lotoreya satış nöqtələrində xüsusilə kasıb təbəqədən olan vətəndaşların böyük həvəslə ”Qızıl 2”, ”Şans ulduzu” və ”Brilliant” ani lotereyaları almasının şahidi oluruq. Belə lotereyaların satılması sosial problemlərin artdığı və işsizliyin hökm sürdüyü dövrə təsadüf etdiyi üçün daha çox insan auditoriyası yığmağa nail oldu. Qeyd edək ki, bu oyunlar ”Azərlotereya” ASC tərəfindən keçirilir. Mövzu ilə əlaqədar olaraq SİA milli məclisin deputatının və Jurnalist Ekspert Mərkəzinin sədrinin fikirlərini öyrənib.

Milli Məclisin Deputatı Tahir Kərimli: ”Keçmiş zamanlarda insanlar heyvan sümüklərini yığaraq ”aşıq-aşıq” oyunundan istifadə edirdilər. Təbii ki, bu oyunların özündə də qumar elementi var idi və insanlar oyunda qalib olmaq üçün bir-birilərini ”əzib” keçirdilər. Buradan da məlum olur ki, insanların keçmiş zamanlardan qumara həvəsi olub. Qumar mahiyyəti daşıyan hər bir oyun və ya lotereyalar insan psixologiyasına ciddi şəkildə təsir edir. Çünki insan uduzduğu zaman əsəbləşir və onda aqressiya yaranır. Bunun nəticəsi olaraq da insan uduzmaq istəmir, uduzduğu zaman da bunun qisasını çıxmaq üçün yenidən oynayır. Qumar oyunu da təşkil edən insanlar bu proseslərin hər birini yaxşı bilir. Çox təəssüflə qeyd etmək istərdim ki, hətta Sovet dövründə də bu cür lotereyalar oynanılırdı. Düşünürəm ki, insan bəxtinə güvənib hərəkət etməkdənsə işləyib zəhmət çəkib daha sonra bəhrəsini görməlidir. Müstəqillik dövründə ölkəmizdə lotereya barədə qanunvericilik müəyyən olunub. Fikrimcə, bu qanunda ciddi şəkildə dəyişikliklər olunmalıdır. Xüsusən də Azərbaycanda bu cür oyunlara yer verilməməli, insanlar zəhmətsiz gəlirlərə alışdırılmamalı və psixologiyamızda dərin çatlara səbəb olan qumarlar yığışdırılmalıdır. İnsanlar bu kimi oyunlar nəticəsində var-yoxdan çıxaraq evini, maşınını, həyatını qurban verir və hətta öz ailə üzvünü belə gözə almayaraq qumarda uduzurlar. Keçmiş dönəmlərdə bizim ölkəmizdə kazinolar fəaliyyət göstərsə də müstəqillik əldə etdikdən sonra bunların hər biri aradan qaldırıldı. ”Topaz”, ”Poz Qazan” və s. digər lotereyalar xalqı soymaqla məşğuldur. İnsanların başını belə şeylərlə qarışdırmaq olmaz. Mən bütün belə lotereyalara qarşıyam. Çünki bu bizim ölkəyə yaraşan bir sistem deyil. Ona görə də bir mənalı şəkildə bu sistem ləğv edilməlidir”.

Jurnalist Ekspert Mərkəzinin sədri Ceyhun Musaoğlu: ”Hal-hazırda fəaliyyət göstərən bütün lotereyalar qumar xarakteri daşıyır. Bugünkü gün bu mövzu çox aktualdır. Hər kəsin bildiyi kimi bizim ölkədə qumar oyunlarının təşkil olunması və həyata keçirilməsi bir mənalı olaraq qadağandır. Bununla əlaqədar olaraq da ölkəmizdə kazinolar fəaliyyət göstərmir. Mənə çox maraqlıdır ki, bu cür lotereyaları həyata keçirən və fəaliyyətini izləyən bir qurum varmı? Bildiyim qədəri ilə bunların hər birinə ”Azərlotereya” ASC baxır. Bu oyunlar sayəsində insanlar külli miqdarda pul uduzur. Bu qumarların hər biri dayandırılmalıdır. Bu oyunlar qumar xarakteri daşımaqla yanaşı eyni zamanda təhlükəli təbliğat mahiyyəti daşıyır. İnsanlar öz qazancını bəxtinə bağlamamalı, əziyyət çəkib millətinə və vətəninə xeyrili bir vətəndaş olmalıdır ki, bunun nəticəsini də görsün. Təbii ki, dövlətimizdə bu cür inkişaf edərək, fəaliyyət göstərir. Yoxsa gedib 1-2 manatlıq kart alaraq, oradan küllü miqdarda pul udmaq fikri olduqca absurddur. Mənim tanıdığım o qədər insan var ki, maaş alan kimi gedib lotereya alıb pozur sonra atır və bu proses daimi olaraq belə davam edir. Kimdir bu insanların cibinə girən? Bunun qarşısı tamamilə alınmalıdır. Əgər mətbuat geniş şəkildə bu məsələni yayımlasa biz bu kimi hadisələrin üstəsindən layiqincə gələcəyik. Çünki heç bir dövlətə vətəndaşını aladıb, pulunu əlindən alan qurumlar lazım deyil”.

***Banuçiçək Hüseynli***

# Əmək pensiyaları daha çox vətəndaşı əhatə edəcək

**“Əmək pensiyaları haqqında” Qanuna təklif edilən son dəyişikliklər pensiyalara əlçatanlığın artırılması və yığılmış pensiya kapitalının daha ədalətli bölgüsü baxımdan vacib layihə kimi qiymətləndirilir. Pensiyaların ödənilməsində və hesablanmasında hansı yeni dəyişikliklər nəzərdə tutulur? Ekspertlər hesab edir ki, dəyişikliklərdən sonra daha çox vətəndaş bu poensiyadan bəhrələnə biləcək.**



ŞƏRH

### Atalar da daha tez pensiyaya çıxa biləcəklər

Dəyişikliyə görə beş və daha çox uşaq dünyaya gətirən analar ilə yanaşı uşaqları övladlığa və (və ya) qəyyumluğa götürüb onları səkkiz yaşınadək tərbiyə etmiş və böyütmüş qadınlar da 5 il daha tez pensiyaya çıxa biləcəklər- Milli Məclisin deputatı, iqtisadçı Vürar Bayramov belə deyir.

Digər tərəfdən, ana vəfat etdiyinə və ya ana ilə nikaha xitam verildiyinə, yaxud ana valideynlik hüququndan məhrum edildiyinə görə 5 və daha çox uşağı və ya sağlamlıq imkanları məhdud uşağını növbəti nikah bağlamadan, təkbaşına səkkiz yaşınadək böyüdən atalar da tez pensiyaya çıxmaq hüququ əldə edəcəklər- deyə o əlavə edib.

### Daha tez pensiyaya çıxma kateqoriyası genişləndirilir

Deputat digər dəyişikliklərdən də danışıb: ”Axırıncı iş yerindən asılı olmayaraq, güzəştli şərtlərlə yaşa görə əmək pensiyası almaq hüququ verən incəsənətin xüsusi sahələrinin, yeraltı, əmək şəraiti xüsusilə zərərli və ağır olan işlərdə ən azı 12 il 6 ay çalışmış kişilər və azı 10 il çalışmış qadınlar da 5 il daha tez pensiyaya çıxmaq hüququ qazancaqlar.

Pensiyaya tez çıxmaq hüququ digər bir sıra şəxslər ilə müqayisədə də dəyişir. Belə ki, hipovizqanizm xəstəliyinə tutulan şəxslərin (liliputların) və fizioloji mütənasibliyi pozulmuş cırtdanboy şəxslərin azı 5 il sığorta stajı olduqda 20 il daha tez pensiyaya çıxa biləcəklər.

Eyni zamanda, mülki aviasiya uçuş və uçuş-sınaq heyətində işlə əlaqədar vəzifələrdə çalışanların həmin işlər üzrə azı 25 il, səhhətinə görə uçuş işindən azad olunmuş şəxsərin isə həmin işlər üzrə azı 20 il sığorta stajı olduqda pensiyaya çıxma yaşı həddi 15 il azaldılacaq”.

### Hərbi qulluqçuların pensiyasının hesablanmasında hansı dəyişikliklər var?

Mövcud qanunvericiliyə əsasən, hərbi qulluqçulara yaşa görə əmək pensiyası hərbi xidmətdən buraxıldıqdan sonra təyin olunur. A m - ma Vüqar Bayramov deyir ki, təklif edilən dəyişikliklərə əsasən, hərbi xidmətə yenidən qəbul edildiyi tarixdən ən azı 72 ay xidmət etmiş şəxslər, məhkəmənin qanuni qüvvəyə minmiş qərarı ilə hərbi xidmətə bərpa edilmiş şəxslər, hərbi xidmət vəzifələrini yerinə yetirərkən həlak olmuş şəxslər (bu zaman pensiyanı ailə üzvləri ala bilir) və ali zabit heyətinə aid şəxslər üzrə hərbi qulluqçu kimi yaşa görə əmək pensiyası təyin olunduqdan sonra yenidən hərbi xidmətə qəbul edilmiş əmək pensiyaçılarının əmək pensiyasının sonuncu təminat xərcliyinə görə yenidən hesablanmasına icazə veriləcək.



### Ailə başçısını itirən ailələrdə pensiya hesablanması dəyişəcək

Vacib dəyişikliklərdən biri də ailə üzvlərinin birinin dünyasının dəyişməsinə görə pensiyaların hesablanması qaydası ilə bağlıdır. Deputat qeyd edir ki, ailə üzvlərindən biri, ailə başçısının qulluq stajına görə əlavə təyin olunmuş yoldaşı və övladları istisna olmaqla, öz seçimi ilə digər növ əmək pensiyasını, yaxud ailə başçısını itirməyə görə müavinət istisna olmaqla sosial müavinəti aldıqda ona ailə başçısının itirilməsinə görə düşən əmək pensiyasının məbləği digər ailə üzvləri arasında bölüşdürülməklə onların əmək pensiyasının məbləği yenidən hesablanır: ”Bu isə həmin şəxslərin əmək pensiyalarının yenidən hesablanması yolu ilə artmasına səbəb olacaq. Eyni zamanda, vəfat etmiş ailə başçısının vəfat etdiyi tarixə əmək pensiyasının yenidən hesablanmasında istifadə olunmamış pensiya kapitalı ailə başçısını itirməyə görə əmək pensiyasının təyinatı zamanı nəzərə alınacaq”.

V.Bayramovun fikrincə, bu dəyişikliyin mahiyyəti bundan ibarətdir ki, mövcud qanunvericiliyə əsasən, yaşa, yaxud əlilliyə görə pensiya alan şəxs ailə başçısını itirdikdə və ailə başçısını itirməyə görə də pensiya hüququ yarandıqda öz pensiyasını seçirsə, ona hesablanan pensiya məbləği digər ailə üzvləri arasında bölüşdürülmür: ” Təklif edilən dəyişikliklərə əsasən, ailə başçısını itirməyə görə pensiya hüququ olan şəxs digər növ əmək pensiyasını və ya sosial müavinəti seçdikdə, ona hesablanan pensiya məbləği digər ailə üzvləri arasında bölüşdürüləcək və bu da onların gəlirlərinin artmasına səbəb olacaq”.



### Pensiyanın bir növündən digərinə keçid mümkün olacaq

Bu məsələ ilə bağlı deputa bildirib: Dəyişikliklərə əsasən, pensiyaçısının əmək pensiyasının bir növündən başqa növünə keçmək hüququ var. Bu zaman, əmək pensiyasının bir növündən başqa növünə keçirilmə bu barədə ərizənin və tələb olunan sənədlərin təqdim edildiyi tarixdən, şəhid ailəsi üzvləri üçün isə ailə başçısına şəhid statusunun verildiyi tarixdən hesablanmaqla aparılır. Bu o deməkdir ki, yaşa görə əmək pensiyası növündən əlilliyə görə əmək pensiyası növünə keçmək istsina olmaqla digər bütün növ əmək pensiyalarına keçmək mümkündür.

### İşləyən pensiyaçılar da daha çox məbləğ ala biləcəklər

İşləyən vətəndaşlarımızın pensiyalarının hesablanması qaydasında da dəyişikliklər olacaq. Belə ki, Vüqar Bayramovun sözlərinə görə, təklif olunan yeni redaktəyə əsasən, yaşa görə əmək pensiyasının pensiya təyin olunan günədək qazanılmış sığorta hissəsi tam məbləğdə ödənilir və pensiya təyin olunduqdan, yenidən hesablandıqdan sonrakı dövr üzrə qazanılan sığorta və yığım hissələri üzrə pensiya kapitalının toplanması davam etdirilir.

”Pensiyaçı işləməyən əmək pensiyaçısı kateqoriyasına keçdikdə və ya əmək pensiyası təyin olunduğu, yaxud bu maddəyə əsasən yenidən hesablandığı gündən sonra 6 il işlədikdə əmək pensiyası avtomatlaşdırılımış qaydada yenidən hesablanır. Bu zaman sığorta və yığım hissələrinin hesablanmasında gözlənilən pensiya ödənişi müddəti aylarının sayı pensiya təyin edildikdən, yaxud yenidən hesablandıqdan sonra işlədiyi ayların sayı qədər, lakin 72 aydan çox olmamaqla azaldılır.

Bu dəyişikliklərin mahiyyətini sadə dildə izah etsək, işləyən pensiyaçıların yığımı avtomatik olaraq 6 ildən sonra hesabalanaraq pensiya məbləğinə əlavə olunacaq. Bununla da, pensiyanın yenidən hesablanması onların müraciəti olmadan yenidən hesablanacaq və pensiya məbləği artırılacaq. Pensiya ödəniş müddəti isə 12 il (və ya 144 ay) deyil, işlədiyi ayları sayı qədər, amma ən çox 6 il (və ya 72 ay) azaldılacaq”- deputat qeyd edib.

Göründüyü kimi, ”Əmək pensiyaları haqqında” Qanuna təklif edilən dəyişikliklər şətləri yüngüllə.dirəcək və xeyli vətəndaşın pensiya təminatını yaxşılaşdıracaq. Ölkədə həyata keçirilən sosial siyasətin məqsədlərindən biri də budur. Qlobal böhran şəraitində Azərbaycan dövləti əhalinin sosial müdafiəsini gücləndirmək siyasətini davam etdirir.

***Elçin***




Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə “İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması” istiqaməti çərçivəsində hazırlanıb.*

SON SƏHİFƏ
Səs
19 aprel
2022-ci il

# Pike barədə 6 milyonluq ŞOK İDDİA!




“Barselona”nın futbolçusu Jerar Pike ilə İspaniya Futbol Federasiyasının prezidenti Luis Rubiales arasında telefon danışığının səs yazısı yayılıb. Qol.az xəbər verir ki, İspaniya mətbuatı məhz Pikenin lobbiçiliyi sayəsində ölkə superkubokunun matçlarının Səudiyyə Ərəbistanında keçirilməsinə qərar verildiyini iddia edib. Müqaviləyə əsasən, 2020-ci ildən superkubokun oyunu həmin ölkədə təşkil olunmalı idi. Lakin COVİD-19 pandemiyasına görə həmin görüşləri keçirmək alınmayıb. Tərəflər arasında bağlanmış müqaviləyə əsasən, bu ildən sözügedən matçlar Səudiyyə Ərəbistanında keçiriləcək.

”El Confidencial”ın yazdığına görə, Ərəbistan tərəfi bu matçlara görə İspaniya Futbol Federasiyasına 24 milyon avro ödəyəcək. Bu məbləğin 6 milyonu vasitəçiliyinə görə Pikeyə çatacaq.

# Kalsiumun faydaları NƏLƏRDİR?

Kalsium bədənimiz üçün ən vacib elementlərdən biri hesab olunur. Kalsium sümüklərimizin və dişlərimizin əsas tərkib hissəsidir. Bədəndəki kalsiumun 99%-i bu bölgələrdə özünü göstərir. 1% qanda və yumşaq toxumalarda olur. Kalsiumun dövranının ilk vəzifəsi qanın laxtalanmasının qarşısının alınması, oynaqların və sümüklərin bərpası, ürək ritmini tənzimləmək, sinir impulslarının ötürülməsini təmin etmək, əzələlərin kontraktilliyini tənzimləmək və toxumaların canlılığının saxlanmasına kömək etməkdir.

Kalsium güclü sümük və dişlərin qurulmasına kömək edir. O, ürək döyüntüləri də daxil olmaqla əzələ daralmalarını tənzimləyir və normal qanın laxtalanmasını təmin edir. Yer üzündə ən çox rast gəlinən beş elementdən biri olan kalsium qidalarda da olur.




***Ləman***




# İki aktyor
## "Ata ocağı"ndan ayrıldı

Baş rollarında xalq artistləri Qurban İsmayılov, Həmidə Ömərova, əməkdar artist Mehriban Xanlarova iştirak edən ”Ata ocağı” serialında ayrılıq yaşanıb. SİA xəbər verir ki, məşhur Azərbaycan serialından aktyorlar Corc Qafarov və Fəridə Şahbazova ayrılıb. Artıq onların olduğu səhnələrin çəkilişləri də yekunlaşıb. Aktyorların canlandırdığı Vəfa və Ramiz obrazları ölərək serialla vidalaşıb. Serialın bu mövsüm final edib-etməyəcəyi isə məlum deyil.

***Ləman Əlizadə***

# Bu gün
## 27 dərəcə isti olacaq

**Bakıda və Abşeron yarımadasında aprelin 19-da havanın dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Milli Hidrometeorologiya Xidmətindən SİA-ya verilən məlumata görə, mülayim cənub-qərb küləyi əsəcək.**

Havanın temperaturu gecə 10-12° isti, gündüz 15-19° isti olacaq. Bakıda gecə 10-12° isti, gündüz 17-19° isti olacaq. Atmosfer təzyiqi 761 mm civə sütunu təşkil edəcək. Nisbi rütubət 60-70 % olacaq.

Azərbaycanın rayonlarında sabah hava əsasən yağmursuz keçəcək. Gecə və səhər bəzi yerlərdə duman olacaq. Qərb küləyi ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturu gecə 7-12° isti, gündüz 22-27° isti, dağlarda gecə 0-5° isti, gündüz 11-16° isti olacaq.





# Məşhur yazıçının oğlu öz qızını öldürdü

**Məşhur yazıçılar Paul Auster və Lydia Davisin oğlu Daniel Auster, qızının ölümündə günahlandıraraq cümə günü həbs edilib. SİA xarici mətbuata istinadən xəbər verir ki, Daniel Auster 10 aylıq qızına ABŞ-ın Nyu-York şəhərindəki evində baxırdı. Daha sonra evə çağırılan tibb işçiləri Ruby Austeri huşsuz vəziyyətdə tapıblar. Xəstəxanaya aparılan kiçik qızın daha sonra öldüyü açıqlanıb.**

**Yarılma nəticəsində Ruby Austerin həddindən artıq fentanil və heroinin dozasından öldüyü müəyyən edilib. Polis işçiləri King County Prokurorluğu ilə görüşdükdən sonra hadisənin qətl olduğuna qərar verdiklərini bildirib.**

***L. Əlizadə***

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
Bakı şəhəri,
Üzeyir Hacıbəyov küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
“ƏLİNCƏ” AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
Tel: 598-33-90
Faks: 493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur
Tiraj: 3220